# DƏLİ KÜR



№2 (246)

3 avqust 2018-ci il

“Qazax” Xeyriyyə İctimai Birliyinin aylıq qəzeti Qiyməti 40 qəpik

# “Qazax Xeyriyyə” İctimai Birliyinin 2018-ci ilin birinci yarımilinin yekunlarına həsr olunmuş geniş tədbiri

***12 iyul 2018-ci ildə “Xarı bülbül” sarayında “Qazax Xeyriyyə” İctimai Birliyinin 2018-ci ilin birinci yarımilinin yekunlarına həsr olunmuş geniş tədbir keçirilmişdir.***

***Tədbiri giriş sözü ilə açan “Qazax Xeyriyyə” İctimai Birliyi İdarə Heyətinin sədri, professor İlham Pirməmmədov bildirdi ki, son altı ay ərzində ölkəmizin siyasi, iqtisadi və sosial həyatında əldə edilən nailiyyətlər “Qazax Xeyriyyə” İctimai Birliyinin fəaliyyətində də nəzərə çarpacaq dərəcədə hiss olunmuşdur.***

***İctimai Birliyin bir çox üzvləri ölkə prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan sərəncamlarla fəxri adlara layiq görülmüş, orden və medallarla təltif edilmişlər. Çoxlu uğurlarımızın, dövlət təltiflərinin, yubiley tədbitləri və ad günlərinin olduğunu nəzərə alaraq İdarə Heyətinin iclasında İctimai Birliyin yarımillik fəaliyyətinə həsr olunmuş toplantının geniş formada keçirilməsini qərara aldıq.***



**Hörmətli tədbir iştirakçıları! Dəyərli qonaqlar!**

2018-ci ilin birinci yarısı ölkəmiz üçün əlamətdar hadisələrlə yaddaqalan bir dövr olmuşdur. Hamımıza məlumdur ki, 11 aprel 2018-ci il tarixdə Azərbaycan Respublikasında növbədənkənar prezident seçkiləri keçirilmişdir. Seçkilərin təbliğat-təşfiqat dövründə biz də İctimai birliklərin icazə verilən formatında seçkilərlə bağlı tədbirlərimizi keçirdik və “Qazax Xeyriyyə” İctimai Birliyi olaraq prezidentliyə namizəd İlham Əliyev cənablarına dəstək olduğumuzu bildirdik. Böyük fəallıqla keçən bu seçkilərdə ölkə prezidenti cənab İlham Əliyev seçicilərin 86,02 % səsini qazanaraq növbəti 7 il müddətinə ölkə prezidenti seçilmişdir.

Biz də “Qazax Xeyriyyə” İctimai Birliyi olaraq, böyük qələbə münasibətilə xalqımızı və prezidentimizi ürəkdən təbrik etdik. Bu haqda geniş təbrik mətnini İctimai Birliyin rəsmi internet səhifəsi olan www.qazaxib.az saytında yerləşdirdik.

Diqqətinizə çatdırıram ki, bu il Azərbaycan xalqının böyük oğlu, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi ölkənin hər yerində olduğu kimi, Qazax mahalında da böyük təntənə ilə qeyd edildi.

Bununla yanaşı Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi münasibətilə ölkə Prezidenti cənab İlham Əliyev 2018-ci ili Azərbaycan Respublikasında “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan etmişdir. Buna müvafiq olaraq ölkəmizdə və xaricdə Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı böyük tədbirlər keçirildi.

Xüsusi olaraq qeyd etmək istərdim ki, Azərbaycanda çaxnaşma, qarşıdurma yaratmaq istəyən və xaricdən idarə edilən qüvvələr heç vaxt arzularına çata bilməyəcəklər. Çünki, onların qarşısında xalq və hakimiyyət birliyi kimi monolit bir sədd dayanmışdır. Xalqımız öz Prezidentini böyük sevgi ilə dəstəkləyir. Məlumdur ki, Azərbaycanda olan yüksək iqtisadi inkişafı və ictimai siyasi sabitliyi gözü götürməyən qüvvələr digər ölkələrdə baş verən terror hadisələrini ölkəmizə gətirmək istəyirlər. Ama son günlər Mingəçevir İES-də baş vermiş qəza nəticəsində ölkəmizin ərazisində elektrik enerjisi verilişində yaşanan gərginlik və Gəncə şəhərində baş verən terror aktı hadisələri onu göstərdi ki, xalqımız ölkə prezidentinin ətrafında sıx birləşərək təxribatlara uymayır. Din pərdəsi altında xaricindən idarə olunan təxribatçıların Gəncədə törətdikləri terror hadisələri xalqımız tərəfindən lənətlənmişdir. “Qazax Xeyriyyə” İctimai Birliyinin üzvləri də belə həssas məsələlərdə dövlətçiliyimiz əleyhinə olan qüvvələrə qarşı açıq-aydın öz sərt mövqeyini bildirmişdir.

Tədbirdə iştirak edən insanlara baxaraq ürəyimdən keçən bir hissi Sizinlə bölüşmək istəyirəm: Nə yaxşı ki, Sizlər kimi qeyrətli, vətənpərvər, şərəfli insanlarla bir yerdəyik.

Məlumdur ki, SSRİ dağıldıqdan sonra hər bir ölkədə olduğu kimi Azərbaycanda da özbaşınalıq, tənəzzül baş verdi. Həmin dönəmdə sərhəd bölgəsi olan Qazax və Ağstafa rayonlarına da erməni silahlı birləşmələrinin basqını başladı və sərhəddə qanlı hadisələr baş verdi. O vaxt indi bu tədbirdə iştirak edənlərin əksəriyyəti Qazax Xeyriyyə Cəmiyyətinin yaradılmasında iştirak etdi. Vəzifəsindən, statusundan asılı olmayaraq, hər kəs düşmənlə üz-üzə dayanmış Qazax mahalının dədə-baba torpaqlarını və orada yaşayan insanları düşünürdü. Könüllü toplanan ianələr hesabına böyük miqdarda vəsait yığılaraq o zaman Azərbaycanı tərk etməyə hazırlaşan rus ordusundan çoxlu sayda hərbi texnika və silah-sursat alınaraq Qazax mahalının sərhəd kəndlərində ermənilərə qarşı vuruşan könüllülərdən ibarət yaradılmış birləşmələrə göndərilmişdir. Bunun sayəsində Qazax və Ağstafanın işğal edilməsinin qarşısı alınmış və Qazaxdan bir nəfər də olsun başqa rayona gedən məcburi köçkünümüz olmamışdır. Yenə qeyd edirəm, bu gün burada bizimlə bir yerdə həmin vaxtlarda baş verən hadisələrin canlı şahidi olmuş insanlar iştirak edir. Mən ad çəkmədən Cəmiyyətin fəaliyyətində zərrə qədər də olsa əməyi olan hər kəsə “Qazax Xeyriyyə” İctimai Birliyi adından təşəkkürümü bildirirəm.



Tam məsuliyyətlə deyə bilərəm ki, bu gün “Qazax Xeyriyyə” İctimai Birliyi Qazax mahalının simvollarından birinə çevrilmişdir. Qazax və Ağstafa camaatı bizim gördüyümüz tədbirlər haqqında yaxından maraqlanır, xoş sözlərini, irad və tövsiyələrini bildirir, İctimai Birliyin mətbu orqanı olan “Dəli Kür” qəzetinin növbəti sayının çap olunmasını səbrsizliklə gözləyirlər. Son bir ildə “Dəli Kür” qəzetinin tirajı artırılaraq 700 nüsxəyə çatdırılmışdır. Onlardan Qazax və Ağstafa rayonlarının hər birinə 250 nüsxə göndərilir və orada pulsuz olaraq əhali arasında yayılır. Eyni zamanda, qəzetin hər bir nömrəsi İctimai Birliyin internet səhifəsində yerləşdirilir.

Hesab edirəm ki, “Qazax Xeyriyyə” İctimai Birliyinin rəsmi qeydiyyatdan keçmiş üzvləri ilə bərabər, bütün Qazax mahalının camaatı da bizim Birliyin eynihüquqlu üzvləridir. Həmçinin İctimai Birliyin başqa rayonlardan olan çoxlu sayda üzvləri də vardır. Məsələn, bu gün tədbirimizdə bizimlə birgə iştirak edən Tariyel Qarayev Ağdam rayonunu, Fərhad Eyyubov Qəbələ rayonunu, Eldar Əliyev və Afiq Əliyev isə Şuşa rayonunu təmsil edirlər.

Tədbirimizdə iştirak edən akademik Teymur Bünyadovu, akademik Nizami Cəfərovu, akademik Şahin Mustafayevi, AMEA-nın müxbir üzvü Bilal Bilalovu, Qazax mahalının tarixinin dərin bilicisi, tədqiqatçı-araşdırmaçı Şəmistan Nəzirlini, Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevi, professor Məhəbbət Dəmirçiyevanı, Səməd Vurğunun Ev muzeyinin direktoru Nüşabə xanım Vəkilovanı, Məlahət Qurbanovanı, Sultanxanım Nəsibovanı, Sevda Qocayevanı, Tapdıq Osmanovu, Yusif Rəhimovu, Ramiz Göyüşovu, Mədət Səttərovu, Qasım Abdullayevi, Rövşən Babanlını, Raliz Qaraveliyevi, Qazaxdan gəlmiş şair Barat Vüsalı, Ramiz pəhləvanı və digər hörmətli və dəyərli iş adamlarımızı, alimlərimizi, həkim və hərbçilərimizi, təhsil işçilərimizi salamlayaraq, hər birinizə xoş gəlmişsiniz deyirəm. Biz Sizinlə fəxr edirik!

Bizim arxamızca çox qabiliyyətli, istedadlı, xaricdə təhsil görmüş gənclərimiz, davamçılarımız gəlir. Bu gün toplantımızda o gənclərdən bir neçəsi iştirak edir. Xahiş edirəm Fuad həkim, Fariz həkim və Seymur həkim ayağa qalxsın ki, Siz də onları yaxından tanıyasınız. Bax bu gənclərin üçü də tibb üzrə Türkiyədə ən tanınmış universitetlərdə təhsil alaraq yüksək dərəcəli uzman həkim kimi ölkəmizə qayıtmış və sağlamlığımızın keşiyində dururlar. Sağ olsunlar!

Bu gün tədbirimizdə müəyyən səbəblərdən iştirak edə bilməyən Xalq şairi Nəriman Həsənzadəni, Qazax Xeyriyyə Cəmiyyətinin keçmiş sədri Vidadi Bayramovu, ATƏT Parlament Assambleyasında nümayəndə heyətinin tərkibində təşkilatın illik sessiyasında iştirak etmək üçün Almaniyanın paytaxtı Berlin şəhərinə gedən Qazax rayonundan Milli Məclisə seçilən deputatlarımız Kamran Nəbizadəni və Ülviyyə Ağayevanı, Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayevi, Bakı Dövlət Universitetinin Qazax filialının direktoru, Əməkdar elm xadimi, professor Vüsət Əfəndiyevi xidməti işi ilə əlaqədar tədbirimizə gələ bilməyən polkovnik Namiq İsmayılovu, təlim-məşq toplanışında olan Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti, “Şöhrət” ordenli Firdovsi Umudovu, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru professor Mustafa Babanlını, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyevi, “Odlar Yurdu” Universitetinin rektoru professor Əhməd Vəliyevi, AMEA-nın müxbir üzvləri professor Məhəmməd Babanlı və professor Arif Məmmədovu, Xalq artistləri Tarıyel Qasımovu və Sabir Məmmədovu, 221 nömrəli tam orta məktəbin direktoru, əməkdar müəllim Fikrət Xəlilovu, “Şərq” qəzetinin baş redaktoru Akif Aşırlını, eyni zamanda, üzürlü səbəblərdən iştirak edə bilməyən





# "Qazax Xeyriyyə" İctimai Birliyinin 2018-ci ilin birinci yarımilinin yekunlarına həsr olunmuş geniş tədbiri

digər dostlarımızı ürəkdən salamlayır, onlara da işlərində uğurlar arzulayırıq.

Xüsusi olaraq Qazax rayon İcra Hakimiyyətinin başçısı hörmətli Rəcəb Babaşovun və Ağstafa rayon İcra Hakimiyyətinin başçısı hörmətli Məhərrəm Quliyevin də salamlarını Sizlərə yetirir, həmçinin bizlərin də salamını tədbirimizdə iştirak edən mahalımızdan gəlmiş nümayəndə heyətinin rəhbəri, hamımızın sevimlisi Barat Vüsaldan bugünkü tədbir iştirakçılarının salamlarını da onlara çatdırılmasını xahiş edirəm. Onu qeyd edim ki, hər bir işdə biz onlarla, onlar da bizimlədir.

Əziz tədbir iştirakçıları! İndi isə "Qazax Xeyriyyə" İctimai Birliyi tərəfindən ötən altı ayda görülən işlər haqqında bəzi məlumatları diq-



qətinizə çatdırmaq istəyirəm.

"Qazax Xeyriyyə" İctimai Birliyi 2018-ci ilin ilk tədbirini "Şöhrət" ordenli, Respublika Ağsaqqallar Şurasının sədr müavini, əməkdar elm xadimi, akademik Teymur Bünyadovun anadan olmasının 90 illik yubileyi münasibətilə və onun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Şərəf" ordeni ilə təltif olunması ilə bağlı silsilə tədbirlərlə başladı.

Öncə 7 fevral 2018-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasında akademik Teymur Bünyadovun 90 illik yubileyinə həsr olunmuş elmi sessiya keçirildi.

Fevral ayının 17-də isə "Qazax Xeyriyyə" İctimai Birliyinin təşəbbüsü və təşkilatçılığı ilə "Xarı bülbül" sarayında akademik Teymur Bünyadovun 90 illik yubileyinə həsr olunmuş geniş tədbir keçirildi. Tədbirdə AMEA və ali təhsil müəssisələrinin alimləri, Milli Məclisin deputatları, şairlər, incəsənət xadimləri və s. iştirak etdilər. Bizə sürpriz olaraq Qazax rayon İcra Hakimiyyətinin başçısı cənab Rəcəb Babaşov, Ağsfata rayon İcra Hakimiyyəti başçısının müavini Lalə Eyyubova və mahalımızdan gələn digər qonaqlar tədbirimizdə iştirak etdilər.

Bundan başqa fevral ayının 23-də Beynəlxalq Muğam Mərkəzində Beynəlxalq Muğam Mərkəzi, "Qazax Xeyriyyə" İctimai Birliyinin, AMEA Folklor İnstitutunun, AMEA Tarix İnstitutunun birgə təşkilatçılığı ilə görkəmli tarixçi-etnoqraf alim, Əməkdar Elm xadimi, akademik Teymur Bünyadovun 90 illik yubileyi qeyd edilib. Həmin tədbirdə bu gün burada iştirak edən üzvlərimizlə yanaşı, "Qazax Xeyriyyə" İctimai Birliyinin çoxsaylı nümayəndələri iştirak etdi. Hörmətli Teymur müəllim! Siz həqiqətən də Qazax Xeyriyyə Cəmiyyətinin qurucularından və fəaliyyətində bu əməyi olan bir qazaxlı kimi daim bizim qəlbimizdə əbədi yaşayacaqsınız. Biz Sizinlə fəxr edir və qürur duyuruq!

Növbəti tədbirimiz Novruz Bayramı ərəfəsində dahi Səməd Vurğunun anadan olmasının 112-ci ildönümü münasibətilə Fəxri Xiyabanda Səməd Vurğunun məzarı önündə "Qazax Xeyriyyə" İctimai Birliyinin üzvləri və Səməd Vurğunun Ev Muzeyinin əməkdaşları ilə birgə böyük izdihamlı tədbir keçirdik. Həmçinin Fəxri Xiyabanda uyuyan unudulmaz xalq yazıçıları Mehdi Hüseynin, İsmayıl Şıxlının, İsa Muğannanın və Yusif Səmədoğlunun, xalq şairi Vaqif Səmədoğlunun və digər eloğlularımızın da məzarlarını ziyarət edib, əkliller qoyduq.

Biz Fəxri Xiyabanda tədbir keçirən zaman eyni vaxtda "Qazax Xeyriyyə" İctimai Birliyi İdarə heyətinin üzvləri də Azərbaycan Yazıçılar Birliyi Qazax Filialının sədri şair Barat Vüsalla birgə Qazaxda Xalq şairi Səməd Vurğunun Yuxarı Salahlıdakı Poeziya evində keçirilən tədbirdə iştirak etmişlər.

Bu il Xalq şairi Osman Sarıvəllinin doğum gününə həsr olunmuş, Qazaxda keçirilən tədbirdə iştirak etdik. İlk olaraq şairin 2-ci Şıxlı kəndindəki məzarını ziyarət edib məzarı üzərinə gül dəstələri qoyduq. Qazax rayon İcra Hakimiyyətinin başçısı hörmətli Rəcəb Babaşova xüsusi təşəkkürümü bildirirəm ki, Osman Sarıvəllinin qəbirüstü abidəsini tamamilə yeniləyərək, qəbirin ətrafını da abadlaşdırmışdır. Biz, həmçinin orada nakam şairimiz Eldar Nəsiblinin məzarını da ziyarət etdik. Daha sonra Qazax Ədəbiyyat Muzeyində Osman Sarıvəlliyə həsr olunmuş poeziya bayramında iştirak etdik.

Onu da bildirirəm ki, ölkəmizdə 11 aprel növbədənkənar Prezident seçkiləri ilə bağlı "Qazax Xeyriyyə" İctimai Birliyinin üzvləri professor Mustafa Babanlı, professor Əhməd Vəliyev mənimlə bilikdə Qazax və Ağstafa rayonlarında təbliğat-təşviqat tədbirlərində iştirak etdik.

2018-ci ilin aprel ayında Milli Qəhrəmanımız Alı Mustafayevin həyat yoldaşı Lalə Mustafayeva mənə zəng edərək bildirdi ki, aprelin 14-də Bərdə şəhərində Azərbaycanın Milli Qəhrəmanı Alı Mustafayev adına 5 saylı tam orta məktəbin həyətində onun büstünün açılış mərasimi olacaqdır. Sizi də orada görmək istəyirik. Biz də İdarə Heyətinin qərarı ilə professor Rüstəm Kamalı və İctimai Birliyin katibi Yusif Alıyevi həmin tədbirdə iştirak etmək üçün Bərdə rayonuna ezam etdik. Alının sevdiyi qərənfil güllərindən hazırlanmış əklil Birliyin adından onun büstü önünə





qoyuldu. Hər iki nümayəndəmiz Bərdə rayon İcra Hakimiyyəti və Təhsil Şöbəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə iştirak edib, Birliyin adından ürək sözlərini demişlər.

Bizim görəcəyimiz işlər sırasında mahalın tanınmış sənətkarları, şair və yazıçılarının doğum və anım günlərinin keçirilməsi fəaliyyət planımıza salınmışdır. "Qazax Xeyriyyə" İctimai Birliyinin fəaliyyət planına uyğun olaraq 14 may 2018-ci ildə Rəşid Behbudov adına Mahnı Teatrında "Qazax Xeyriyyə" İctimai Birliyinin təklifi, maddi dəstəyi, Azərbaycan Aşıqlar Birliyinin təşkilatçılığı və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin razılığı ilə birgə ustad aşıq Şıxlı Məhəmmədin (Dərya Məhəmməd) anadan olmasının 110 illiyinə həsr olunmuş tədbir keçirilmişdir. Həmin tədbir Azərbaycan Televiziyasının Mədəniyyət kanalında tam olaraq nümayiş etdirilmiş və mətbuatda tədbir haqqında geniş yazılar dərc edilmişdir.

Eyni zamanda qeyd edim ki, bu il bizim İctimai Birliyin İdarə Heyətinin üzvü hörmətli Sultanxanım Nəsibovanın 60 illik yubileyini də geniş şəkildə qeyd etdik və ona da "Qazax Xeyriyyə" İctimai Birliyi adından "Fəxri Fərman" təqdim etdik. Sultanxanım, sizi bir daha təbrik edir, can sağlığı və işlərinizdə müvəffəqiyyətlər arzu edirik.

Həmçinin bu il "Qazax Xeyriyyə" İctimai Birliyinin üzvü şair, publisist, tərcüməçi, Əli Kərim adına Poeziya klubunun sədri, Sumqayıt Poeziya Evinin direktoru İbrahim Hacıyevin (İlyaslı) anadan olmasının 55 illik yubiley tədbirini qeyd etdik və İctimai Birliyin İdarə Heyətinin qərarı ilə ona Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə "Fəxri Fərman" təqdim etdik.

**Əziz qonaqlar!** Hamımız bilirik ki, Azərbaycanın və türk dünyasının böyük ozanı, ustad sənətkarı Aşıq Ədalət 14 sentyabr 2017-ci ildə dünyasını dəyişmişdir. Böyük sənətkar öz vəsiyyətinə uyğun olaraq Qazax rayonunun Ağköynək qəbiristanlığında dəfn olunmuşdur. Dədə Ədalət dünyasını dəyişdikdən sonra "Qazax Xeyriyyə" İctimai Birliyinin əsas işlərindən biri də onun qəbirüstü abidəsinin qurulması olub. Buna görə Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovla, Qazağın ağsaqqalları, ziyalıları ilə çoxsaylı görüşlər keçirdik. Qəbrüstü abidəni mükəmməl hazırlaya biləcək heykəltəraş axtardıq. Sonda Xalq rəssamı, professor Natiq Əliyevin üzərində dayandıq və artıq ustadın abidəsi tamamlanmaq üzrədir. Mən bu işdə bizə həmişə dəstək olan, yaxından köməklik göstərən Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşova, Aşıq Ədalətin ailə üzvlərinə və İctimai Birliyin İdarə Heyətinin üzvü Sultanxanım Nəsibovaya Birliyimizin üzvləri adından minnətdarlığımı bildirirəm. Qeyd edim ki, yaxın günlərdə abidə Qazağa aparılaraq postament üzərinə qoyulacaq. Əminəm ki, bundan sonra Qazax və Ağstafada keçiriləcək bütün saz-söz bayramları Dədə Ədalətin abidəsinin ziyarətindən sonra baş tutacaq.

Həmçinin hər il olduğu kimi, bu il də may ayının 27-də Xalq şairi Səməd Vurğunun anım günündə "Qazax Xeyriyyə" İctimai Birliyinin üzvləri ilə dahi şairin məzarını ziyarət edib, üzərinə gül-çiçək dəstələri düzdük.

Biz, həmçinin Müdafiə Nazirliyi və Qazax rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıdışının 25-ci ildönümü və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş Qazax rayonunda keçirilən "Milli Qurtuluşdan Zəfərə doğru" kütləvi vətənpərvərlik bayramında İctimai Birliyin geniş nümayəndə heyəti ilə iştirak etdik.

1 iyul 2018-ci ildə Xalq şairi Səməd Vurğunun Ev muzeyinin müdiri Nüşabə xanım Vəkilovanın təşkilatçılığı ilə Səməd Vurğunun Ev muzeyində bizim əziz qardaşımız, filologiya elmləri doktoru Məti Osmanoğlunun 60 illik yubileyi ilə bağlı yeni çap olunmuş kitablarının təqdimatı keçirilmişdir.

Elə biz də orada Məti müəllimin yubileyinin "Qazax Xeyriyyə" İctimai Birliyi İdarə Heyətinin qərarı ilə fəaliyyət planımıza salındığını bildirdik və bu gün də xüsusi olaraq Məti Osmanoğlunun 60 illik yubiley tədbirini də burada onun sənət dostları, iş yoldaşları, həmkarları və bizlərlə bir yerdə qeyd olunacaq.



Qeyd edim ki, bu ilin yanvar ayında ustad aşıq Dərya Məhəmmədin şagirdi, çağdaş Azərbaycan aşıq sənətinin ustad aşıqlarından olan Aşıq Yaqub Şıxlı dünyasını dəyişdi. "Qazax Xeyriyyə" İctimai Birliyi Aşıq Yaqubun qəbirüstü abidəsinin hazırlanmasına maddi köməklik göstərmişdir.

Bir məqamı da qeyd etmək istəyirəm ki, bizim "Qazax Xeyriyyə" İctimai Birliyi həmçinin Qazax mahalının müəllimlərinin, təhsil işçilərinin problemlərinə aidiyyəti üzrə köməkliklər göstərir. Bu yaxınlarda Təhsil Nazirliyinin elan etdiyi müsabiqədə Qazax şəhər 3 saylı tam orta məktəbin müəllimləri Tahirə Xasməmmədova və Şəlalə Məhərrəmova tərəfindən təqdim olunmuş "Psixoloji maarifləndirmə" layihəsi qalib olmuşdur. Layihəyə uyğun olaraq Qazax və Ağstafa müəllimləri üçün Türkiyə Cümhu-



# "Qazax Xeyriyyə" İctimai Birliyinin 2018-ci ilin birinci yarımilinin yekunlarına həsr olunmuş geniş tədbiri



riyyətindən dəvət ediləcək Türkiyə uşaqları iş birliyi üzrə dünyada tanınmış professor Erdəm Söyləməzin mühazirə və seminarları təşkil olunacaqdır. Qeyd edim ki, professor Erdəm Söyləməzin gəliş-gedişi və Qazax-Ağstafada qalma xərcləri "Qazax Xeyriyyə" İctimai Birliyi və Qazax rayon İcra Hakimiyyəti tərəfindən qarşılanacaqdır.

Bundan başqa bizə müraciət edən şəhid ailələri, veteran övladlarının təhsillə bağlı problemlərinə də köməklik göstərmişik.

Təbii ki, ölkəmiz üçün əlamətdar olan bu dövr, həmçinin bizim "Qazax Xeyriyyə" İctimai Birliyinin üzvləri üçün də yaddaqalan və əlamətdar olmuşdur. Bu sırada istərdim ki, ilk olaraq bu müddət ərzində ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamlar ilə fəxri adlar, rütbə, orden və medallarla təltif olunan şəxslər haqqında məlumat verim:

Fevral ayında Bilgəh Kardioloji Sanatoriyasının şöbə müdiri Şərif Şahməmməd oğlu Şahməmmədova prezidentin sərəncamı ilə Əməkdar həkim fəxri adı verilmişdir.

May ayında Sabir Novruz oğlu Məmmədova prezidentin sərəncamı ilə Xalq artisti fəxri adı verilmişdir.

Silahlı Qüvvələrin yaradılmasının 100 illik yubileyi münasibətilə iyun ayında Müdafiə Nazirliyinin Baş Hərbi İnspeksiyasının rəis müavini polkovnik Namiq Poladova və Müdafiə Nazirliyinin Rabitə və Avtomatik İdarəetmə Sistemləri İdarəsinin rəisi, polkovnik Məmməd Eminova Azərbaycan Ordusunun döyüş hazırlığı sahəsindəki yüksək xidmətlərinə görə cənab prezidentin sərəncamı ilə general-mayor hərbi rütbəsi verilmişdir.

İyun ayında Binəqədi rayon Polis İdarəsinin rəisi polis polkovniki Namiq İsmayılov prezidentin sərəncamı ilə "İgidliyə görə" meda-



lı ilə təltif olunmuşdur.

Sözün həqiqi mənasında bu cür yüksək təltiflər doğma Qazağımız üçün çox böyük şərəfdir. Bütün təltif olunanları təbrik edir və




Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevə bütün Qazax mahalının insanları adından təşəkkürümüzü bildiririk.

Əziz dostlar! Bilirsiniz ki, Qazax həm də öz alimləri, ziyalıları ilə məşhurdur. Bu yaxınlarda Salatın Əhmədovanın və Rövşən Babanlının müəllifliyi ilə çapdan çıxmış "Qazax mahalının alimləri" kitabını vərəqləyəndə bir daha qürur hissi keçirdim ki, mahalımızın uğurlar qazanmış necə böyük alimləri vardır. Bu gün də o uğurları davam etdirən ləyaqətli alimlərimiz çoxdur. Onlardan bu gün tədbirimizdə iştirak edən Türkiyənin Süleyman D?mir?l Universitetinin professoru, Mexanika üzrə Türk Milli Komitəsinin s?dr müavini Abdulla Sofiyevi, Almaniyanın Rostok Universitetinin dosenti, mayelərin istilik-fiziki xassələrinin araşdırılması sahəsində dünyada aparıcı alimlərdən biri olan Cavid Səfərovu misal göstərmək olar.

Bundan başqa, Azərbaycanda tətbiqi riyaziyyat və kibernetika elmi sahəsində apardığı tədqiqatlara, əldə etdiyi uğurlarına görə dünyanın ən tanınmış alimlərindən biri olan AMEA-nın müxbir üzvü Bilal Bilalovu da Sizlərə təqdim etmək istərdim. Bilal müəllim bu il AMEA-dakı seçkilərdə AMEA-nın Rəyasət Heyətinin üzvü seçilib. Onu da qeyd edim ki, bu il həmçinin Bilal müəllimin 55 yaşı tamam olmuşdur. Bilal müəllim, Sizi təbrik edirik və Sizinlə fəxr etdiyimizi bildiririk!

Məlumdur ki, Qazax mahalından olan yazıçılar, şairlər bir çox özəlliklərinə görə digərlərindən fərqlənirlər. Bizim çoxumuzun tanıdığı Əməkdar jurnalist, gənc yazıçı Varis Yolçuyev mayın ayında Rusiyanın Soçi şəhərində keçirilən "Ədəbiyyat üzrə festivallar festivalı"nda Avrasiya materikinin 170 yazıçısı arasında 1-ci yer tutaraq Festivalın qızıl medalını Azərbaycana gətirmişdir. Varis müəllim, təbrik edirik!

Görəsən, hamımızın sevimlisi



Şəmistan Nəzirli olmasaydı, biz bu qədər generallarımızı tanıyardıqmı? Bu qədər hərbi sərkərdələrimiz haqqında, hərb tariximiz haqqında müfəssəl bilgilərə sahib ola bilərdikmi? Düşünürəm, yəqin ki, yox. Bizim bu sevimli tədqiqatçımızın 75 yaşı olmasına baxmayaraq, yorulmaq bilmədən bu gün də çalışır. Bir neçə gün öncə onun "Azərbaycan Milli Ordusunun 100 illiyi" adlı arxiv sənədləri əsasında yazılmış dəyərli bir kitabı işıq üzü görmüşdür. Həmçinin bu gün bu kitabın da ilk dəfə təqdimatını keçirəcəyik. Şəmistan müəllim, Sizi təbrik edirik!

Şəmistan müəllimin kitabı ilə təxminən eyni vaxtda bizim tanınmış tədqiqatçımız, akademik Teymur Bünyadovun tələbəsi İsmayıl Umudlu tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan, parlament üzvü Abbas bəy Atamalıbəyovun "Siyasi mühacirin xatirələri" kitabı ingiliscədən Azərbaycan dilinə tərcümə olunmuşdur.

Həmçinin SSRİ idman ustası, SSRİ bədən tərbiyə əlaçısı, Respublika dərəcəli hakim, Əməkdar məşqçi, Əməkdar bədən tərbiyəsi və idman xadimi, Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi, Fəxri idman xadimi Ramiz Tağıyevə həsr olunmuş, jurnalist Səbinə Yusifin qələmə aldığı "40-cı fənd" kitabının da təqdimatını xüsusi qeyd etmək istərdim. Ramiz müəllimə həsr edilmiş kitabda mənim də öz ürək sözlərim əks olunmuşdur. Azərbaycan Respublikasında idmanın inkişafında, xüsusi olaraq Qazax güləş məktəbinin ənənələrinin saxlanılması və inkişaf etdirilməsində Ramiz müəllimin misilsiz xidmətləri vardır. Ramiz müəllim, bilin ki, biz hamımız Sizinlə fəxr edirik! Onu da nəzərinizə çatdırıram ki, Ramiz Tağıyevin 70 illik yubileyi yaxın vaxtlarda Qazax rayonunda İctimai Birlik və Qazax rayon İcra Hakimiyyəti ilə birlikdə yüksək səviyyədə keçiriləcəkdir.

Sonra Azərbaycan Yazıçılar Birliyinin Qazax Bölməsinin sədri, şair, publisist Barat Vüsal çıxış edərək Qazax rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun, Ağstafa rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevin səmimi salamlarını tədbir iştirakçılarına çatdırdı. Qeyd etdi ki, mən bura Qazağın məşhur pəhləvanı, hamımızın sevimlisi Ramiz Tağıyevlə göndərilmişəm. Tədbirdən sonra Qazağa qayıdacağıq və burada şahid olduğumuz möhtəşəm tədbir haqqında Qazax və Ağstafa rayon icra Hakimiyyəti başçılarına məlumat verəcəyik. Ümumiyyətlə, Sizin bu tədbirlərdə iştirak üçün bizi dəvət etməyiniz bizim üçün çox sevindirici haldır. Buna görə sizlə-



rə hər iki başçının adından və şəxsən öz adımdan dərin təşəkkürlərimizi bildiririk. Nəzərinizə çatdırıram ki, yaxın günlərdə şair Avdı Qoşqarın anadan olmasının 60 illik, SSRİ İdman ustası, Əməkdar məşqçi Ramiz Tağıyevin isə 70 illik yubileyi münasibətilə Qazax rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə böyük tədbirlər keçiriləcək. Sizləri Qazax rayon İcra Hakimiyyətinin başçısı hörmətli Rəcəb Babaşovun adından həmin tədbirdə iştirak etməyə dəvət edirəm.

İ.Pirməmmədov qeyd etdi ki, qarşıdakı yarım ildə bizi daha böyük tədbirlər gözləyir. Bilirsiniz ki, Prezidentimiz cənab İlham Əliyev böyük Azərbaycan mütəfəkki-



ri, xalq yazıçısı İsa Muğannanın 90 illik yubileyinin keçirilməsi haqqında 31 may 2018-ci il tarixində sərəncam imzalamışdır. "Qazax Xeyriyyə" İctimai Birliyi Qazax və Ağstafa icra hakimiyyətləri ilə birlikdə həm Bakıda, həm də hər iki rayonumuzda geniş tədbirlər həyata keçirməyi planlaşdırır. Tədbirlərin daha sanballı keçirilməsi üçün akademik Nizami Cəfərov, professor Rüstəm Kamal və dosent Məti Osmanoğlundan ibarət məsləhət qrupu yaratmışıq. İndi isə "Qazax Xeyriyyə" İctimai Birliyi İdarə Heyətinin qərarına uyğun olaraq Birliyin "Fəxri Fərman"ları ilə təltif olunmuş, ölkəmizin ictimai-siyasi, mədəni həyatında fərqlənən, cənab prezidentin sərəncamları ilə fəxri adlara, orden-medallara, hərbi rütbələrə layiq görülən, eyni zamanda, hesabat dörü ərzində yubiley və doğum günləri olan şəxsləri bir-bir səhnəyə dəvət edək və "Fəxri Fərman"ları təqdim edək:

- AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun şöbə müdiri, AMEA-nın müxbir üzvü, AMEA Rəyasət Heyətinin üzvü **Bilal Telman oğlu Bilalov** - Elmin inkişafındakı müstəsna xidmətlərinə, Azərbaycanda tətbiqi riyaziyyat və kibernetika elmi sahəsində apardığı tədqiqatlara, əldə etdiyi uğurlarına görə və anadan olmasının 55 illiyi münasibətilə təltif olunur.

- Araşdırmaçı-publisist, hərbi jurnalist, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü **Şəmistan Əmiraslan oğlu Nəzirli** - Azərbaycan hərb tarixinin araşdırılmasındakı misilsiz xidmətlərinə, Xalq şairi Səməd Vurğun, general Əli ağa Şıxlinski və Qazax mahalının digər dahi şəxsiyyətləri haqqında çox-

# "Qazax Xeyriyyə" İctimai Birliyinin 2018-ci ilin birinci yarımilinin yekunlarına həsr olunmuş geniş tədbiri




saylı silsilə əsərlər yazdığına görə və anadan olmasının 75 illiyi münasibətilə təltif olunur.

- Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Bilgəh Kardioloji Sanatoriyasının şöbə müdiri, Əməkdar həkim **Şərif Şahməmməd oğlu Şahməhəmmədov** - Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə görə təltif olunur.

- Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru, Xalq rəssamı, Rusiya Rəssamlıq Akademiyasının fəxri akademiki **Natiq Kamal oğlu Əliyev** - Azərbaycan incəsənətinin inkişafındakı böyük xidmətlərinə və türk dünyasının tanınmış ozanı, Azərbaycan aşıq məktəbinin əvəzsiz sənətkarı Aşıq Ədalətin abidəsini yaratdığına görə təltif olunur.

- "Qazax Xeyriyyə" İctimai Birliyi İdarə Heyətinin üzvü, "Şöhrət" ordenli, Əməkdar mühəndis, texnika elmləri doktoru **Qasım İsrafil oğlu Abdullayev** - Azərbaycanda metro-tunel tikintisinin inkişafında göstərdiyi misilsiz xidmətlərə görə və anadan olmasının 60 illiyi münasibətilə təltif olunur.

- Yazıçı, Əməkdar jurnalist, Rusiya Yazıçılar İttifaqının üzvü **Varis Musa oğlu Yolçuyev** - Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə təltif olunur.

- Binəqədi rayon Polis İdarəsinin rəisi, polis polkovniki **Namiq Qəzənfər oğlu İsmayılov** - Azərbaycan dövləti qarşısındakı müstəsna xidmətlərinə görə təltif olunur.

- "Ozan" aşıq müsabiqəsinin qalibi, peşəkar aşıq **Avdı Telman oğlu Musayev** - Azərbaycan ozan-aşıq sənətinin inkişafındakı xidmətlərinə görə təltif olunur.

- Əməkdar mədəniyyət işçisi, peşəkar aşıq, müğənni **Solmaz Qorçu qızı Kosayeva** - Azərbaycan mədəniyyətinin, ozan-aşıq sənətinin inkişafındakı xidmətlərinə görə təltif olunur.

- Filologiya elmləri doktoru, professor, Bakı Slavyan Universitetinin kafedra müdiri **Rüstəm Kamal oğlu Rəsulov (Rüstəm Kamal)** - Azərbaycan ədəbiyyatının inkişafındakı böyük xidmətlərinə görə təltif olunur.

- Filologiya elmləri doktoru, Bakı Dövlət Universitetinin müəllimi **Məti Osman oğlu Bayramov** - Azərbaycan ədəbiyyatının inkişafındakı böyük xidmətlərinə görə və anadan olmasının 60 illik yubileyi münasibətilə təltif olunur.

- Azərbaycan Dövlət Nevt və Sənaye Universitetinin rektoru, texnika elmləri doktoru, professor **Mustafa Baba oğlu Babanlı** - yüksək ixtisaslı elmi-pedaqoji və rəhbər kadrların hazırlanmasında, elmi-tədqiqat işlərinin aparılmasında və istehsalata, tədris prosesinə tətbiq olunmasında böyük nailiyyətlər qazandığına görə və anadan olmasının 50 illiyi münasibətilə təltif olunur.

- Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Rabitə və Avtomatik İdarəetmə Sistemləri İdarəsinin rəisi, general-mayor **Məmməd Şəmil oğlu Eminov** - Azərbaycan Ordusunun döyüş hazırlığı sahəsindəki yüksək xidmətləri və Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə təltif olunur.

- Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Baş Hərbi İnspeksiyasının rəis müavini general-mayor **Namiq Qasım oğlu Poladov** - Azərbaycan Ordusunun döyüş hazırlığı sahəsindəki yüksək xidmətləri və Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibətilə təltif olunur.

- Akademik Milli Dram Teatrının aktyoru, Azərbaycanın Xalq artisti **Sabir Novruz oğlu Məmmədov** - Azərbaycan mədəniyyətinin, teatr və kino sənətinin inkişafındakı böyük xidmətlərinə görə təltif olunur.

- SSRİ idman ustası, SSRİ bədən tərbiyə əlaçısı, Respublika dərəcəli hakim, Əməkdar məşqçi, Əməkdar bədən tərbiyəsi və idman xadimi, Fəxri Bədən Tərbiyəsi və İdman İşçisi, Fəxri idman xadimi **Ramiz Cahangir oğlu Tağıyev** - Azərbaycan Respublikasında idmanın inkişafında, xüsusi olaraq Qazax güləş məktəbinin ənənələrinin saxlanılması və inkişaf etdirilməsindəki misilsiz xidmətlərinə görə təltif olunur.



Tanınmış şair, publisist **Rəfail Ağakişi oğlu İsmayılov (Rəfail İncəyurd)** - Azərbaycan poeziyasının inkişafındakı xidmətlərinə görə təltif olunur.

- Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair, publisist Avdı Musa oğlu Həsənov (Avdı Qoşqar) - Azərbaycan poeziyasının inkişafındakı xidmətlərinəgörə və anadan olmasının 60 illiyi münasibətilə təltif olunur.

**Qeyd:** *Rüstəm Kamal, Rəfail İncəyurd, Avdı Musayev və b. həm də doğum günlərinin hesabat ərəfəsinə təsadüf etdiyinə görə təltif olunurlar.*

Hər birinizə təşəkkür və minnətdarlığımızı bildiririk. Hər birinizlə fəxr edirik, çox sağ olun. Qeyd edim ki, bu gün tədbirimizdə üzrlü səbəblərdən iştirak edə bilməyən professor Mustafa Babanlının, general-mayor Namiq Poladovun, polkovnik Namiq İsmayılovun, Xalq artisti Sabir Məmmədovun "Fəxri Fərman"ları yaxın günlərdə özlərinə çatdırılacaq.

Professor İlham Pirməmmədovun çıxışından sonra məclis "Qazax Xeyriyyə" İctimai Birliyinin üzvü, filologiya üzrə elmlər doktoru Məti Osmanoğlunun 60 illik yubiley tədbiri ilə davam etdirildi. Tədbirdə Məti Osmanoğlunun iş yoldaşları-Bakı Dövlət Universitetinin professorları, qələm dostları və ailə üzvləri iştirak edirdi.

Tədbirdə akademik Teymur Bünyadov, AMEA-nın müxbir üzvü Bilal Bilalov, Azərbaycan Aşıqlar Birliyinin sədri professor Məhərrəm Qasımlı, akademik Nizami Cəfərov, professor Alxan Bayramov, professor Rüstəm Kamal, professor Məhəbbət Dəmirçiyeva və digərləri Məti Osmanoğlunun həyat və yaradıcılığından geniş bəhs edərək yubilyara can sağlığı, uzun ömür və yaradıcılıq uğurları arzuladılar.

Tədbirdə ölkəmizin tanınmış musiqiçilərindən Eldar Ələkbərov "Saloğlu" İnsturmental ansablı ilə, Sahib İbrahimov, Muğam Müsabiqəsinin laureatı Gülnar İsayeva, Aşıq Avdı, Aşıq Şaiq və Aşıq Solmaz Kosayeva, Aşıq İlham Aslanbəyli gözəl müsiqi nömrələri səsləndirərək tədbir iştirakçılarını feyziyab etdilər.

Sonda "Qazax Xeyriyyə" İctimai Birliyi İdarə Heyətinin sədri İ. Pirməmmədov son söz deyərək tədbir iştiraçılarına öz minnətdarlığını bildirdi və bütün yubliyarları və doğum günü olanları, fəxri adlarla təltif olunan şəxsləri ürəkdən tərik edərək, onlara can sağlığı, uzun ömür və müvəffəqiyyətlər arzuladı.

Tədbir haqqında daha geniş məlumatla "Qazax Xeyriyyə" İctimai Birliyinin rəsmi saytında tanış ola bilərsiniz.

***"Qazax Xeyriyyə" İctimai Birliyinin mətbuat xidməti***

# Varis Yolçiyev: "Qələbəmi Cümhuriyyətimizin 100 illiyinə həsr edirəm"

*"Dəli Kür" qəzetinin növbəti müsahibi Azərbaycan Yazıçılar Birliyinin komissiya üzvü, Rusiya Yazıçılar İttifaqının, International union of Writers təsisatının üzvü, Avrasiya Millətlər Assambleyası Ədəbiyyat Şurasının həmsədri, beynəlxalq aləmdə qısa müddətdə olduqca böyük uğurlara imza atmış yazıçı Varis Yolçuyevdir.*

**- Varis müəllim, bu yaxınlarda yaradıcılıq sahəsində növbəti uğura imza atmısınız. Mayın 24-dən 28-dək Rusiya Federasiyasının Soçi şəhərində özündə 98 ölkəni birləşdirən Avrasiya materikinin 170 yazıçısının qatıldığı nüfuzlu "LiFFt-2018" ədəbiyyat üzrə üçüncü festivallar festivalında qızıl medala layiq görülmüsünüz. Bu münasibətlə sizi "Qazax Xeyriyyə" İctimai**




**Birliyinin İdarə Heyəti və çoxsaylı üzvləri adından təbrik edir, festival barədə oxuculara daha geniş məlumat verməyinizi xahiş edirik.**

- Artıq 3-cü ildir ki, keçirilən Avrasiya materikinin ədəbiyyat üzrə LiFFt festivallar festivalı kifayət qədər nüfuzlu festivaldır. Belə ki, təsisçiləri Avrasiya Millətlər Assambleyası, Rusiya Millətlər Assambleyası, LiFFt Avrasiya Xalqlarının mədəni inkişafına Dəstək Fondu olan, rəsmi tərəfdaşları Rusiya Federasiyasının Mədəniyyət Nazirliyi, Rusiyanın Mətbuat və kütləvi kommunikasıyalar üzrə Federal Agentliyi olan bu festivalın işini izləməyə beynəlxalq tərkibli böyük məmur,diplomat və media ordusu təşrif buyurmuşdu. Festival Proqramında böyük ədəbiyyat forumu, müxtəlif müsabiqələr, dəyirmi masalar, ustad dərsləri, seminarlar, sərgilər, kitab təqdimatları, kitab yarmarkaları, maraqlı incəsənət proqramları yer almışdı. Festival may ayının 27-də Soçi şəhərinin Mərkəzi konsert salonunda keçirilən qala gecə ilə yekunlaşdı. Rusiyanın və qonşu ölkələrin dövlət və hökumət rəsmilərinin, səfirlik əməkdaşlarının, Rusiyanın aparıcı mediasının, eləcə də materikin bir neçə olkəsindən gəlmiş jurnalistlərın təşrif buyurduğu bu mərasim Azərbaycan üçün qürurverici keçdi. Belə ki, festivalın baş mükafatı münsiflər heyətinin yekdil qərarı ilə mənə təqdim olundu. Çexiyadan, Avstriyadan, Rusiyadan, Monqolustandan, Almaniyadan və Fransadan olan vitse-lauratlar gümüş və bürünc medallarla təltif olundular. Bütün digər festival iştirakçıları isə fəxri diplomlara və festival iştirakçısı sertifikatlarına layiq görüldülər.

Festivalın qalibi kimi mənə qızıl medal, " Qizil LiFFt" seriyasından yüksək tirajla " Metamorfoza" romanının çapı müqaviləsi, qiymətli hədiyyələr təqdim olundu. Təltif mərasimində, eləcə də"Rossiya" telekanalına müsahibə verərkən mən bu qələbəmi Azərbaycan Cumhuriyyətinin 100 illiyinə həsr etdiyimi söylədim. Xatırladım ki, əvvəlki iki "LiFFt" festivallar festivalının qalıbləri Konstantin Kedrov-Çelışev (Rusiya) və Oljas Süleymenov (Qazaxıstan) olmuşlar.

*(Davamı 5-ci səhifədə)*

# Varis Yolçiyev: “Qələbəmi Cümhuriyyətimizin 100 illiyinə həsr edirəm”

*(Əvvəli 4-cü səhifədə)*

**- Belə bir uğuru gözləyirdinizmi?**

-Əslində mən maksimalist adamam, uşaqlıqdan devizim “Daim irəli!” olduğundan kiçik hədəflər götürmürəm, yalnız böyük hədəfləri nişan alıram. LiFFt festivalının keçirilməsi qaydaları dünyanın ən böyük ədəbiyyat festivallarının keçirilmə qaydaları ilə demək olar ki, eynidir: Bir il ərzində materikin hər bir guşəsindən festivalın yekun mərhələsinə qatılmaq istəyi ilə Münsiflər Heyətinə minlərlə yazar nəsr və nəzm nümunələri göndərirlər, diqqətli yoxlamalardan sonra əsərlərin ən yaxşıları uzun siyahıya salınır və müəlliflər festivala dəvət alırlar. Festival günlərində yazarlar əyani olaraq münsiflərlə və publika ilə təmasda olurlar, seminarlarda, master klasslarda, forumda özlərini ən yaxşı cəhətdən göstərməyə çalışırlar. Ayrıca oxucu simpatiyası üzrə də ballar hesablanır. Nəhayət, festivalın son günündə - Qala gecədə mükafatçıların və laureatların adları açıqlanır. Mən festivala çoxşaxəli yaradıcılığımı tam açmaq, jüridə təmsil olunan müxtəlif zövqlü ədəbiyyat funksionerlərini, tənqidçiləri təmin etmək üçün həm psixoloji, həm fəlsəfi-mistik, həm də realist sevgi hekayələri təqdim etmişdim. Festivalın 3-cü günü qisa siyahı açıqlananda adımı siyahıda görəcəyimə heç bir şübhəm yox idi. Ancaq, düzünü deyim ki, qızıldan daha çox gümüşə ümid edirdim. Çünki əsas favorit olan Çexiyalı yazıçı da, digər iddialı namizədlər də orada böyük nümayəndə heyətinə malik idilər, böyük dəstək görürdülər. Onlarla barabər ölkələrindən məmurlar, Rusiyadakı səfir və ya konsullar, tərcüməçilər, media nümayəndələri də təşrif buyurmuşdular. Festivalda heç də favorit olmayan, heç yüzlüyə belə düşməyən erməni yazarının siz bircə dəstəyini görəydiniz. Məmurlar, diplomatlar, festivalın mədəni proqramına daxil olunan musiqiçilər, ayrıca təşkil olunan foto-sərgi. Üstəlik, yerli şəhər administrasiyasındakı, Rusiya mətbuatındakı ermənilərin təəssübkeşlikləri. Mənsə tamamilə tək idim, yeganə güvəndiyim “İyirmi bir” və “Sonuncu mogikan” kimi hekayələrimin jüri tərəfindən hədsiz bəyənilməsi, oxucu simpatiyasının mənim tərəfimdə olması, festivalaqədərki uğurlar və titullar salnaməmin genişliyi idi. Rusiya hökuməti ölkənin bir neçə alı təhsil ocağının filologiya və yaradıcılıq fakültələrini təmsil edən istedadlı tələbələrin festivalda iştirakını maliyyələşdirmişdi ki, onlar tanınmış yazarlardan ustad dərsləri ala bilsinlər, özlərini çağdaş ədəbi prosesin bir parçası hiss etsinlər. Bax “Unudulmuşlar“ və “Sarı dəftərin əhvalatı” hekayələrim həmin tələbələr arasında əl-əl gəzirdi. Tələbələr mənim əsl dəstək qrupum idi.

**- Bu,sizin beynəlxalq uğurlar zəncirinizdə yeni bir halqa oldu.**

- Bəli, daha öncələr də beynəlxalq miqyaslı uğurlara imza atmışdım. Ötən il UNESCO-nun və Varşavada keçirilən Slavyan Ədəbiyyat Festivalının Adam Mitskeviç medalına layıq görülmüşəm. Eləcə də ötən il Antuan de Sent Ekzüperi (Fransa) diplomuna layiq görülmüşəm. Önçəki il Beynəlxalq Moskva Ədəbiyyat Mükafatına layıq görülmüşəm. Nyu-Yorkda keçirilən Dünya Yazıçıları Konqresinin iştirakçısı olmuş, «Promotion of Creative Writinq in theUSA» layihəsinə seçilən 50 dünya yazıçısından biri olmuşam.

Daha əvvəllər də müxtəlif uğurlarım olub.

**- Festival və səfəriniz boyunca diqqətinizi çəkən, sizə maraqlı görünən hansı nüanslar oldu?**

- Təbii ki, Qarabağ müharibəsinin ağrısını çəkən xalqın sıra nəfəri kimi məni ən çox maraqlandıran mükafatsız qalan ermənilərin böyük nümayəndə heyətinin qələbəmə reaksiyası oldu. Qala gecəsində qızıl mükafatçı olaraq mənim adım elan olunanda və Azərbaycan bayrağı dalğalananda bütün zal məni davamlı alqışlayanda onların əyləşdiyi sıraya göz gəzdirdim, hamısının bir nəfər kimi ayağa qalxıb zala qoşulmasının və əl çalmasının şahidi oldum. Bilirsiniz, festivalın qızıl medalçısı kimi necə qürur hissi keçirirdimsə, ermənilərin mənim bayrağımı alqışlamaq məcburiyyətinə görə də beləcə qürur hissi keçirdim.

**- Varis müəllim, festivaldan cəmi bir neçə gün sonra beynəlxalq statuslu yüksək bir vəzifəyə təyin olundunuz. Yeri gəlmişkən, bu münasibətlə də sizi təbrik edirik.**

- Bəli, mən beynəlxalq statuslu yüksək vəzifəyə - Avrasiya Millətlər Assambleyası Ədəbiyyat Şurasının həmsədri vəzifəsinə təyin olunmuşam. Bu mötəbər qurumda həmsədrlik missiyasını Almaniya, Fransa, Rusiya, Qazaxıstan, Belarus, Danimarka, Avstriya və Çindən olan digər 8 həmsədrlə birgə icra etməyə başlamışam ki, onların da arasında Sergey Biryukov, Nadaa Sendoo, Aleksandr Ratkeviç, Oljas Süleymenov kimi tanınmış və nüfuzlu şəxsiyyətlər yer alıb.

Həmsədrlərin missiyası 5 milyard nəfərdən artıq əhali yaşayan, 94 ölkəni birləşdirən bu nəhəng materikdə böyük və əhatəli ədəbiyyat layihələrinin təşkili məsələləri ilə məşğul olmaqdır. Əsas məqsədi xalqların geniş dialoqu, qarşılıqlı əlaqələri və ictimai diplomatiyası əsasında Böyük Avrasiya Əməkdaşlığı İctimai İnteqrasiya Modelinin formalaşdırılmasını təmin etmək hesab edilən Avrasiya Millətlər Assambleyasının bir qurumu olaraq Ədəbiyyat Şurası özlüyündə cəmiyyətlərin ədəbiyyata, ümumən mədəniyyətə daha çox diqqət ayırmasına, mənəvi-əxlaqi dəyərlərə daha çox önəm verilməsinə xidmət edir.

Belə yüksək beynəlxalq tribuna əldə etməyimdən böyük



qürur duyur, fürsətdən istifadə edib Azərbaycanımıza, mədəniyyətimizə, ədəbiyyatımıza fayda gətirmək üçün əlimdən gələni əsirgəməyəcəyimi bildirirəm.

**- Ədəbiyyata necə gəlmisiniz, o illəri necə xatırlayırsınız?**

- 90-cı illərdə xırda-para hekayələr, bir də sevgi şeirləri yazırdım. Bir gün dayım hekayələrimi xalq yazıçımız İsmayıl Şıxlıya təqdim etdi, mənə də dedi ki, Ali Sovetin deputatı olan İsmayıl müəllimin indi vaxtı yoxdur, yeqin hekayələrə baxması 2-3 ay çəkəcək. Amma 3 gün sonra böyük yazıçı məni hökumət evinə baxan mənzilinə dəvət elədi, dedi, sənin adını çox gözəl qoyublar, sən əsl ədəbiyyat varisi olacaqsan.

Ustad mənə müəyyən tövsiyələr verdi, bəzi şeylər öyrətdi. Bir sözlə, mənim ilk nəsr müəllimim oldu. Uğurlu yol yazısı yazlb hekayələrimi “Ulduz” jurnalında dərc də etdirdi. Beləcə, ədəbiyyata gəldim.

**- Ümumiyyətlə, tənqidçilərin, ədəbi mühitin sizin yaradiciliginiza münasibətindən razisinizmi?**

- Beynəlxalq miqyasda götürsək, Şərqi Avropanın ən böyük ədəbiyyat dərgisi olan “Rossiyskiy kolokol” dərgisinin şərhçisi Yelena Vasilyevanın, tanınmış Rusiya yazıçıları Sergey Lukyanenkonun, Aleksandr Qritsenkonun, ABŞ-ın tanınmış ədəbiyyat agenti Lun Menkenin, tanınmış belarus yazarı Aleksandr Ratkeviçinn, abxaz yazarı Vladimir Delbanın, Türkiyənin nüfuzlu “Milliyyet” qəzeti ədəbiyyat redaksiyasının, Özbəkistanın “Darakçı” nəşrinin redaktoru Rustam İqbolun yaradıcılığım haqqında səsləndirdikləri xöş sözlər, yazılan məqalələr, Moskva şəhərində fəaliyyət göstərən Qorki adına Beynəlxalq Ədəbiyyat institutunda müdafiə olunan elmi işlərdən birinin yaradıcılığıma həsr olunması belə deməyimə əsas verir ki, tənqidçilərin, ədəbi mühitin mənim yaradıcılığıma münasibəti obyektiv və gözəldir. Şübhəsiz ki, Azərbaycanda da yaradıcılığıma diqqət ayıran, dəyər verən tanınmış, nüfuzlu ədəbiyyat xadimləri az deyil. Nəsrimizin canlı klassiki Elçinin, ədəbi tənqidimizin görkəmli nümayəndələri Vaqif Yusiflinin, Nizaməddin Şəmsizadənin adlarını çəkməyə bilmərəm.

**- Ən çox oxunan, beynəlxalq miqyasda ən çox uğur qazanan, həmçinin bəzən tənqid də olunan yazıçısınız, bu təzad nədən qaynaqlanır, sizcə?**

- Mən ədəbiyyata doxsanıncı illərdə böyük yazıçımız İsmayıl Şıxlıdan dərs alaraq gəlmişəm. Amma ilk romanım yalnız 2008-ci ildə işıq üzü görüb. Cəmiyyətdə ədəbiyyatın rolunun olmaması, kitab mağazalarının kütləvi məhv edilməsi fonunda mən ədəbiyyata hansısa hazır güclü bir əsərlə yox, belletristika ilə gələsi oldum. “Sonuncu ölən ümidlərdir” adlı bu roman planlarımın həyata keçməsində ilk addım oldu. Kitab klubu ilk kitabımı müstəqil Azərbaycanın tarixində ən şox oxunan kitab elan etdi, 10 min tirajlıq debüt nəşri, sonradan 6 il dalbadal təkrar nəşr, pirat kitabı bazarının ən çox ona üz tutması kimi faktlar var, kitab söylənəndə ağız büzən minlərlə gənc bu kitabla mütaliəyə başladı.

Mən cəmiyyətin diqqətini ədəbiyyata yönəltdim, sonra isə kütləvi oxucuya belletristik əsərlər yönəltməklə yanaşı özəl oxuculara “Metamorfoz”, “Yetmiş yeddinci gün”, “Yanvarın 13 günü”, “Sonuncu mogikan” kimi fəlsəfi-psixoloji əsərlər təqdim etdim.

Belletristikaya görə tənqid olundum, düzdür, amma sonrakı yolum mənə bol təriflər, mükafatlar, böyük tirajlar gətirməkdədir. Mənim ədəbiyyat devizim “Yazıçı oxucunun ardınca getməz” söyləyən həmkarlarımdan fərqlidir. Onlar sandıq ədəbiyyatı yaratmağı üstün tuturlar, mənsə ədəbiyyata oxucu gətirməyi üstün tuturam. İlk romanımın oxucusu olan yüz minlərin indi bir hissəsi yenə belletristika axtarışındadır, amma digər hissəsi hazırda həvəslə ciddi ədəbiyyat oxuyur.

**- Siz əslən Qazax rayonundansınız. Oradamı doğulmusunuz? Kimlərdənsiniz?**

- Xeyr, mən Sumqayıt şəhərində doğulmuşam. Atam dövrünün tanlnmış ədəbiyyatşünası olan Musa Yolçuyev Yuxarı Salahlı kəndindəndir. Biz Culoydarlılar nəslindənik. Nəslimizin qəhrəmanlıq salnaməsi ilə həmişə qürur duymuşam. Ulu Culoydar babam Qazaxda qadına sataşmış iki Dilican ermənisini gedib evlərindən götürərək əlqolunu bağlaylb, Qazağa gətirib, həmin qadının hüzurunda öldürübmüş, bundan ötrü Çar canişini ona güllələnmə cəzası vermişdi.

Anam isə İncə dərəsindəndir, Aslanbəyli kəndindən. Ana babam Tat oğlu İsmayıl dövrünün tanınmış ziyalısı, ictimai xadimi olub. 2-ci dünya müharibəsi illərində dədə-baba mülkündə uşaq evi yaradaraq bir ucu Krasnodardan, Rostovdan gəlmiş yetim sovet uşaqlarına çörək verib.

**- Yaradıcılığınızla bağlı yeni planlarınız haqqında nələri qeyd etmək istərdiniz?**

- Mənimçün bir sutka 23 saatdan, bir ay 29 gündən, bir il 11 aydan ibarətdir. Vaxt elə sürətlə uçur ki, görəcəyim işləri çatdıra bilməməkdən qorxuram. Ona görə də daha əzmlə çalişiram. Uğurlar qənaətlənmək, tükənmək üçün deyil, digər uğurlara stimul almaq üçündür. Qarşıda yenə növbəti uğurlar olacaq, inşallah.

**- Geniş və əhatəli müsahibəyə görə təşəkkür edirik. Xalqımız və mahalımız sizdən daha böyük beynəlxalq ədəbi uğurlar gözləyir.**

***Osman MUSAYEV,***
***“Dəli Kür” qəzetinin***
***baş redaktoru***

## Səmədağa Ağamalıoğlu - 150

# Bəşəri ideyalar carçısı

***XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ictimai siyasi fikir tarixində, dövlətçilik sisteminin formalaşmasında, mədəni həyatında böyük rol oynayan Səmədağa Ağamalıoğlunun (1867-1930) anadan olmasından 150 il ötür. Sosial-demokrat ideologiyasının mükəmməl daşıyıcısı olan bu tarixi şəxsiyyətin fəaliyyəti çoxşaxəli və əhatəlidir. S.Ağamalıoğlu təkcə Azərbaycanda deyil, bütövlükdə Qafqazda sosialist ideyasının təməl prinsiplərini müəyyənləşdirən və həyata keçirən ideoloq, təşkilatçı deyil, həm də fəal publisist, naşir, ədəbi tənqidçi, ən mühümü isə türk xalqlarının həyatında müstəsna xidmətləri olan əlifba islahatçısı, türkoloqdur. 1926-cı ilin fevralın 26-dən martın 6-na kimi davam edən I Bakı Türkoloji qurultayını xatırlamaq kifayətdir ki, S.Ağamalıoğlunun mədəni, elmi-fəlsəfi düşüncə sistemində oynadığı böyük rol göz önünə gəlsin.***



Rusiya, Avropa və bir çox Qərb alimlərinin I Bakı Türkoloji qurultayı barədə tədqiqatlarında S.Ağamalıoğlu bu mədəni inqilabın təşkilatçısı deyil, ideoloqu kimi də xatırlanır, yad edilir. Mirzə Fətəli Axundovun başladığı, amma dövrün, tarixi şərtlərin imkan vermədiyi bu böyük missiyanı S.Ağamalıoğlu ömrünün sonunadək şərəflə, uğurla apara bildi. Bununla da xurafatın, geriliyin qurbanı olan Rusiya türkləri ilə yanaşı, Osmanlı imperatorluğunun qalıqları üzərində M.Kamalın qurduğu yeni Türkiyənin həyatında da müstəsna rol oynadı. Türk dilinə tətbiqində ərəb əlifbasının çoxsaylı, həm də qəbul olunmaz dərəcədə uyğunsuzluq yaratdığını M.F.Axundov da, M.Şaxtaxtinski də, Mirzə Cəlil də dəfələrlə söyləyir, əlifbanın dəyişilməsinin yollarını arayırdılar. XX əsrin əvvəllərində Azərbaycan maarifçiləri, Türkiyə ziyalıları əlifba islahatını dönə-dönə təkrarlamasına baxmayaraq problem həll də qalırdı. Böyük mütəfəkkir, filosof Əhməd bəy Ağaoğlu ərəb qrafikasının dəyişdirilməsini dövrün zərurətinə çevrildiyini M.K.Atatürkə təqdir edir, onu inandırmağa çalışırdı. Azərbaycanda isə bu işə başlamağı ağsaqqal Ağamalıoğlu lazım bilir, hətta dünya sosialistlərinin, bolşeviklərin “atası” Leninə məruzə edir və razılığını almağa səy göstərirdi. Şərqin mədəni geriliyinin əsas səbəbini ərəb əlifbasının çətinliyində görən S.Ağamalıoğlu gətirdiyi dəlillər, faktlarla nəhayət ki, Lenini inandırdı. Bununla da əsrlərlə xalqın müasir elmi və texniki biliklərdən kənarda saxlanılmasına əsas olan ərəb əlifbasının islahına başlanıldı, latın qrafikalı əlifbaya keçidin əsası qoyuldu. Cəhalətə, savadsızlığa, xurafata zərbə vuran bu böyük mədəni inqilabın başında S.Ağamalıoğlu və onun komandası dayanırdı. Kim idi bu komandanın üzvləri? Azərbaycanın mədəni təsisatlarını, milli teatrını və səhnə quruluşunu, anadilli mətbuatını yaradan, ilk dərslikləri yazan şəxsiyyətlər bu işıqlı yolun davamçıları, dəstəkçiləri və təbliğatçıları oldular. Milli ictimai fikir tariximizdə “Molla Nəsrəddin”çilər məktəbi yaradan Mirzə Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Azərbaycan Xalq Cümhuriyyətinin fəal publisistləri Xəlil İbrahim, Fərhad Ağazadə, özbək türkcəsini mükəmməl bilən, ədəbiyyat müəllimi Xalid Səid, türkoloji elmdə bu gün də yaratmış olduğu məktəbdən bəhrələndiyimiz Bəkir Çobanzadə kimi böyük düşüncə, elm və əməl sahiblərinin bir araya gətirilməsi Azərbaycanın sovetləşməsinin ilk illərində mühüm hadisə idi.

I Bakı Türkoloji qurultayının təşkili və keçirilməsində S.Ağamalıoğlu ilə birgə çalışan, 1925-ci ilin sentyabrın 5-dən noyabrın 5-dək onunla birgə Orta Asiyada səfərdə olan Xalid Səid yazır: “Ərəb dilinin qayda qanunları onu əsəbləşdirirdi. S.Ağamalıoğlu deyirdi ki, yazıq türk balalarını bu fəlakətdən qurtarmaq lazımdır. Ərəb əlifbasını çıxarıb atmalı və onun yerinə yeni əlifbanı həyata keçirməliyik.” X.Səid onu da yazır ki, türk ədəbiyyatı S.Ağamalıoğlunun ixtisası olmasa da o, bu ədəbiyyatın tədqiqi ilə müntəzəm məşğul olur, müqayisələr, təhlillər aparırdı. Türk ədəbiyyatı tarixini tədqiq etməyin səbəbi həm də onda idi ki, “o ərəb əlifbasını yeni əlifba ilə əvəz etsək, əski ədəbiyyatda ayrılacağıq” deyənlərə əsaslı cavablar axtarırdı. Ərəb əlifbasının islahı deyil, latın qrafikasına keçidin birmənalı tərəfdarı və əsas ideoloqu olan S.Ağamalıoğlu təkcə Azərbaycanda deyil, türk dünyasında əlifba dəyişikliyinə fərqli münasibətləri öyrənir və dövri mətbuat səhifələrində silsilə məqalələr, araşdırmalarla çıxış edirdi. Tatarıstan, krım, özbək, kazax maarifçilərinin düşüncələrinə yaxından bələd olan islahatçı dövlət xadimi bir ay yarım çəkən Orta Asiya səfərində savadsızlığın, cahillik və geriliyin ərəb əlifbasının çətinliyində görür və yəqin edirdi ki, türkləri mədəni dünyadan ayrı salan ən əsas səbəb budur. Bir o qədər də xoş olmayan səfərdən sonra S.Ağamalıoğlu əlifba dəyişikliyini sürətləndirmək üçün bütün metodlardan, hətta inzibati rıçarqlardan yararlanaraq ətrafına xeyli sayda ziyalı tərəfdar toplaya bildi. Beləliklə də 1926-cı ilin fevralın 25-də Bakıda I türkoloji qurultayın keçirilməsinə və əlifba dəyişikliyində vahid mövqeyin formalaşmasına əsaslar yaratdı.

S.Ağamalıoğlu təkcə silsilə məqalələr qələmə alınır, türk dünyasının Avropa mədəniyyətinə yaxınlaşması problemləri barəsində kitablar yazır, çap edirdi. Bu böyük şəxsiyyətin 1924-1929-cu illər ərzində əlifba islahatı, savadsızlığın ləğvi, qadın azadlığı, dini xurafata qarşı mübarizə, müasir ədəbiyyatın təhlili və səhnə mədəniyyətinin formalaşması barədə məzmunca zəngin 8 kitabı işıq üzü görüb. “Bizim yolumuz hayanadır” (1924), “Türk aləmində mədəni məsələlər” (1924), “Türk xalqlarının təxirəsalınmaz mədəni ehtiyacları” (1925), “Elmdən və tarixdən” (1927), “Oktyabr inqilabı və yeni əlifba” (1927), “İki mədəniyyət” (1929), “Namus” (1929) adlı kitabları dövrün ən aktual problemlərini əhatə edir. Bu kitablar əlifba islahatının səbəbləri, türk dünyasının birliyinə əngəl törədən tarixə qayıdış nəzəriyyəsinin çürüklüyü, məshəb ayrıseçkiliyinin yaratdığı problemlər və müasir dünyaya inteqrasiyanın metodlarına həsr olunub. Bu gün müasir tarixçilərin, türkoloqların və teoloqların düşüncələrinə, fikir məhsullarına diqqət yönəltdikdə aydın olur ki, S.Ağamalıoğlunun baxış sistemi heç də köhnə deyil, yenə də aktualdı. Təəssüf ki, ideoloji ehkamlardan xilas olmayan elmi-nəzəri sistemimiz vaxtilə nəşr olunub bütöv bir dövrü təhlil edən bu sayaq kitablara həssas yanaşmır.

S.Ağamalıoğlunun siyasi fəaliyyətinin tədqiqi də yetərincə araşdırılmayıb, bəzi kitablarda onun “Hümmət” firqəsinə mənsubluğu və Azərbaycanın II Respublika dövründəki fəaliyyəti qısa tezislər şəklində ictimaiyyətə çatdırılıb. M.S.İsgəndərovun, Zülfəli İbrahimovun, Xəlil Nəcəfovun tədqiqatlarında S.Ağamalıoğlunun 1920-ci ildən sonrakı siyasi mübarizəsinə həyat və fəaliyyətinə daha çox yer verilib. Amma, arxiv sənədləri, 1905-1920-ci illərə aid dövri mətbuat səhifələri bu tarixi şəxsiyyətin siyasi həyatının, ictimai düşüncəsinin, publisistik yaradıcılığının müxtəlif spektirlərini ortaya çıxarır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi barədə sərəncamı müxtəlif ideologiya daşıyıcısı olan cümhuriyyət qurucularının həyat və fəaliyyətinin araşdırılması üçün geniş imkanlar yaradır. S.Ağamalıoğlu Azərbaycan Xalq Cümhuriyyətinə gedən çətin, şərəfli yolda fəaliyyət göstərən, rüşvətə, korrupsiyaya, yoxsulluğa qarşı mübarizə aparan və ömür boyu sosial demokrat ideologiyasına sadiq qalan tarixi şəxsiyyətdir. XIX əsrin sonu, XX əsrin əvvəli təkcə Qafqazda deyil, Rusiyada və bir sıra Avropa ölkələrində sosial-demokrat ideyasının cəlbediciliyini nəzərə alsaq, S.Ağamalıoğlunun Rusiyada təhsil alıb ilk ixtisaslı topoqraf kimi Vətənə geri dönməsinə diqqət yönəltsək, onun siyasi amal və məqsədi aydın olar. Fakt odur ki, M.Ə.Rəsulzadə, N.Nərimanov, T.Ş.Simurq, M.B.Məhəmmədzadə və digər görkəmli şəxsiyyətlər siyasətə sosial-demokratlar olaraq qatılıb. I Dünya savaşından sonra Azərbaycan siyasətçilərinin bir qismi fəaliyyətlərində milliyyətçiliyə üstünlük versə də, amma N.Nərimanov, S.Ağamalıoğlu, Ə.Pepinov, Ələkbər ağa Şeyxülislamov kimi şəxsiyyətlər sosial-demokrat platformasını tərk etməyiblər.

Tarixi faktlar onu göstərir ki, N.Nərimanovun liderlik etdiyi Bakı “Hümmət”çilərdən fərqli olaraq S.Ağamalıoğlunun rəhbərliyindəki Tiflis “Hümmət”çiləri 1917-ci ilin noyabrında Rusiya Müəssislər Məclisinə keçirilən seçkilərdə iştirak edərək 84 min 748 səslə parlamentdə 4 nəfərlə təmsilçilik hüququ qazanıb. 1918-ci ilin yanvarın 5-də Müəssislər Məclisinə Zaqafqaziyadan seçilən millət vəkilləri bolşevik çevrilişindən sonra Rusiyaya gedə bilməməsi səbəbindən Zaqafqaziya Seymində birləşməli oldular. Beləliklə, sosial-demkrat “Hümmət” firqəsindən S.Ağamalıoğlu Seymin müsəlman fraksiyasına üzv olur.

Parlament üzvü kimi Seymdə fəal iştirak edən S.Ağamalıoğlu Zaqafqaziyanın müstəqilliyinin tərəfdarı kimi çıxış edir, həllini gözləyən vacib problemlərə mütəmadi münasibət bildirirdi. Seymin 1918-ci ilin aprelin 6-dakı iclasında “Hümmət” partiyasının siyasi mövqeyi barədə müzakirələr keçirilir və S.Ağamalıoğlu müstəqillik məsələsində əqidədaşları arasında fikir ayrılığı olmadığını bildirir: “Demokratiyanın mənafeyi üçün biz Zaqafqaziyanın müstəqilliyinin tərəfində dururuq. Bizim başlıca məqsədimiz müstəqillikdir”.

Zaqafqaziya Seyminin dağılmasından sonra 1918-ci ilin mayın 28-də Azərbaycanın istiqlalını elan edən Milli Şuranın bu qərarı S.Ağamalıoğlunun da üzv olduğu “Hümmət”çilər tərəfindən alqışlanır. Nəsib bəy Yusifbəyli, Fətəli Xan Xoyski, X.Xasməmmədovdan sonra çıxış edən S.Ağamalıoğlunun əqidədaşı Ə.Şeyxülislamov müstəqilliyin elan olunmasının vacibliyini və təxirəsalınmazlığını əsaslandırır.

1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin millət vəkili kimi S.Ağamalıoğlu fəal parlamentarizm siyasəti yürüdür, aktual və vacib məsələləri müzakirəyə çıxarırdı. Dövlət büdcəsinin təsdiqi, yerli məmurların özbaşınalığı, polis, kömrük, jandarma sistemindəki əliəyrilik faktlarının tənqidi onun mübariz millət vəkili obrazını formalaşdırırdı. S.Ağamalıoğlu Cümhuriyyət parlamentində aqrar komissiyaya rəhbərlik edir, vaxtaşırı torpağın kəndlər arasında bölüşdürülməsini gündəmə gətirirdi. Çoxsaylı çıxışlarında o tənqidi fikirlər səsləndirir, məmurları ciddi tənqid atəşinə tuturdu. Bakı Dövlət Universiteti açılması barədə parlamentin 1919-cu il 21 aprel iclasında müzakirələrdə fəallıq göstərən S.Ağamalıoğlu bu ali təhsil müəssisəsini təsis etməyə mane olanlara tutarlı cavab verərək deyirdi: “Burada söyləyirlər ki, universitet 18 milyon pul aparır, ona görə, onu hələlik açmaq olmaz. Mən isə deyirəm ki, universiteti açmaqla biz gələcəkdə 18 milyard manat mənfəət götürəcəyik. Bu universitet bir palıd ağacına bənzəyir, basdırsan 20 ildən sonra nəhəng palıd ağacına çevrilir. Bir halda ki, fürsət, məqam özü gəlib, professorlar var, özləri gəlib işləmək istəyirlər, onları əldən buraxmaq olmaz”.

S.Ağamalıoğlu dövrünün ən fəal siyasi xadimi, parlament üzvü olmaqla bərabər publisisti və naşiri idi. I Dünya Müharibəsi illərində, hətta bu tarixdən bir az əvvəl də onun “Musulmanskaya qazeta”, “Zakafkazskaya reç”, “Zarya” qəzetlərində ədəbiyyat, din, torpaq məsələləri barədə siyasi publisistik yazıları, təhlilləri çap olunurdu.

1918-ci ilin iyununda onun rəhbərliyi ilə Azərbaycan dilində Tiflisdə “Gələcək”adlı qəzet nəşr olunur. Əsas məqsəd Qafqazda sosail -demokrat ideyasının yayılması və "Hümmət"in sosial bazasını formalaşdırmaq olan “Gələcək” qəzetinin əldə olunan sayları onu deməyə əsas verir ki, bu mətbu orqan Azərbaycan Xalq Cümhuriyyətinə müxalif mövqedə dayanmayıb. Azərbaycan milli hökümətinin gördüyü tədbirlər, islahatlar, Qafqaz İslam Ordusundan sonra ingilislərin Bakıya gəlməsi, M.Ə.Rəsulzadənin Bakını Azərbaycandan ayırmaq cəhdlərinə qarşı Türkiyə mətbuatına verdiyi nota və müsahibələr “Gələcək” qəzetinin səhifələrində əks olunub. Bu qəzet ilə yanaşı elə həmin ilin oktyabr ayında rusca nəşr olunan sosial-demokrat menşevik “Probujdeniya” qəzetində də S.Ağamalıoğlu fəallıq göstərir, əsas diqqəti fəhlə və kəndli hüquqlarına qorunmasına yönəldir və torpaqların kəndlilərə verilməsini təbliğ edirdi.

Çox təəssüf ki, sovetlər dönəmində olduğu kimi Azərbaycanın müstəqilliyinin bərpasından sonra bir sıra tarixi şəxsiyyətlər kimi S.Ağamalıoğlunun irsi də tam şəkildə araşdırılmayıb.

Azərbaycan Xalq Cümhuriyyətindən sonra II Respublika dövründə S.Ağamalıoğlu təcrübəli dövlət xadimi, xalqın marağını müdafiə edən ziyalı, bəşəri ideyalarla zəngin siyasətçi kimi tanınır, sevilir, sözü ümumittifaq miqyasında eşidilirdi. O, 1920-ci ilin aprelindən sonra Kommunist Partiyası sıralarına qatılır və yenicə formalaşan Azərbaycan Sovet Cümhuriyyəti hökumətində Xalq Torpaq komitəsinin sədri olur. Torpağın milliləşdirilməsi, fəhlə və kəndlilərə paylanılması barədə dekret imzalayır. Həmin günləri xatırlayan S.Ağamalıoğlu yazırdı: “Həmişə demişdim ki, torpaq mülkədarların, bəylərin və ağaların deyil, torpaq onu becərən zəhmətkeşlərin malı olmalıdır. Tarix elə gətirdi ki, indi 1920-ci ildə mən bu dekreti imzalamalı oldum. Əlbəttə, mənim üçün bundan böyük mükafat ola bilməzdi”.

S.Ağamalıoğlu 1921-ci ildə Azərbaycan SSRİ Mərkəzi İcraiyyə Komitəsi sədrinin müavini, Sov.İKP MK-nın üzvü, Azərbaycan SSRİ MK sədri və Zaqafqaziya MİK-nin sədrlərindən biri (1922-1929-cu illər) olaraq ölkənin iqtisadi və mədəni inkişafına öz əvəzsiz töhfələrini verib, yorulmadan çalışıb.

Azərbaycanın dövlətçilik tarixində məxsusi yeri olan S.Ağamalıoğlunun bu il 150 yaşı tamam olur. İnanırıq ki, bu unudulmaz şəxsiyyətin həyatı, fəaliyyəti onun yubiley ilində geniş tədqiq ediləcək, ictimaiyyətə çatdırılacaqdır.

***Ədalət qəz.***

# Cümhuriyyətdən doğulan məktəb

*"Çar Rusiyasının heç bir təhsil ocağı Qori Müəllimlər Seminariyası qədər Azərbaycana mədəniyyət xadimi verməmişdir".*

*Əziz Şərif, professor*

XIX əsrin əvvəllərində Bakıda neft sənayesinin inkişafı ilə əlaqədar olaraq texniki tərəqqi geniş vüsət almışdı.Bu səbəb də Bakı burjuaziyasını ölkədə bir sıra maarif ocaqları açmağa vadar etdi. Məktəblərdə maddi yardımla bərabər tədrislə məşğul olacaq hazırlıqlı müəllimlərə ciddi ehtiyac yarandı. Lakin bu tələbatı ödəyəcək kadr yoxluğu ilə üzləşən Çar Rusiyası 1879-cu ildə Qori Müəllimlər Seminariyası nəzdində Azərbaycan şöbəsini açmağa məcbur oldu. Azərbaycan şöbəsinin ilk dərsləri sentyabrın 1-də fəaliyyətə başladı. Az vaxt ərzində Azərbaycan şöbəsi çox işlər gördü, ciddi metodiki vəsaitlər hazırlanmağa başlandı. Seminariyanın müəllimi olan Aleksey Çernyayevski Azərbaycanlı uşaqlar üçün səs üsulu ilə yazılmış ilk "Vətən dili " dərsliyini tədrisə təqdim etdi.

A. Çernyayevski Azərbaycanın maarifçisi, pedaqoqu olmuşdur. O, ilk təhsilini Şamaxıda dörd sinifli məktəbdə almış, Mərəzə kəndində ilk xalq məktəbi yaratmışdır. Qori (Zaqafqaziya) Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin ilk müfəttişi vəzifəsində çalışmışdır. O, K.D.Uşinskinin mütərəqqi pedaqoji ideyalarının Azərbaycanda ilk davamçılarından biri sayılır. Azərbaycanda ziyalı kadrların hazırlanmasında xüsusi xidmət sahibidir. Fidudin bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Süleyman Sani Axundov, Cəlil Məmmədquluzadə və başqaları məhz A.Çernyayevskinin köməyi ilə təhsilə cəlb olunmuş, onun kitabından dərs almışlar. C.Məmmədquluzadənin həyat yoldaşı, xeyriyyəçi qadın olan Həmidə xanım Məmmədquluzadə öz xatirələrində yazırdı ki, böyük ədib Çernyayevskini və onun arvadını çox sevir, onlara dərin hörmət bəsləyir, şəkillərini özündə saxlayırdı. Azərbaycan şöbəsinin gördüyü işlər, keçirdiyi tədbirlər 1900-cu ildə Parisdə keçirilən Dünya müəllimlərinin seminariyasında nümayiş olunmuş və birinci yeri tutmuşdur.

Azərbaycan şöbəsi Qoridə fəaliyyətdə olduğu 40 ildə Azərbaycan maarifinin, elminin və mədəniyyətinin qızıl fondunu təşkil edən 250-yə yaxın xalq müəllimi yetişdirib. Bu məzunlar mütərəqqi ziyalı, pedaqoq, Azərbaycan ədəbiyyatı tarixinin yaradıcısı olan Firudin bəy Köçərlinin sözləri ilə desək "Millətin çırağı" olan əsil müəllimlər idilər.Bu maarif fədailəri içərisində Nəriman Nərimanov, Üzeyir Hacıbəyov kimi dahi şəxsiyyətlərlə yanaşı, ömrünü Azərbaycan xalqının mənəvi yüksəlişinə həsr etmiş Firudin bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Mahmud bəy Mahmudbəyov, Süleyman Sani Axundov, Hacı Kərim Sanılı, Fərhad Ağazadə, İsmayıl Qayıbov, İsfəndiyar Vəkilov, Əhməd Seyidov və başqalarının adını iftixarla çəkə bilərik.

Azərbaycan Xalq Cümhuriyəti 1918-ci ilin 22 iyulunda Qori Müəllimlər Seminariyasının Azərbaycan Şöbəsinin əmlakının Qazağa köçürülməsi qərarını verir. Firudin bəy Köçərliyə 5 min rubl vəsait ayrılır və Qazax Seminariyasının yaradılması üçün Gəncə xəzinədarlığından həmin vəsait Firudin bəy Köçərliyə verilir.

Qazax Seminariyasının təşkili Azəbaycan Xalq Cümhuriyyətinin təhsil sahəsində ilk və uğurlu addımlarından biri kimi qiymətlidir. Böyük çətinliklə Firudin bəy bütün əmlakı Qoridən qatara yükləyib Ağstafa stansiyasına gətirir. Keçmiş seminaristlərin köməyi ilə əmlak Qazağa daşınır. Kosalar kəndindən olan varlı ağa Məşədi İbrahim öz şəxsi evini seminariyaya bağışlayır. Hökumətin və varlı bəylərin köməyi ilə 1918-ci il sentyabrın 17-də ilk dərsin zəngi çalınır. Bu günün seçilməsi də təsadüfi deyildi. Həmin gün milli hökumət Gəncədən Bakıya köçür, hökumətin Bakıda təntənəli qarşılanması mərasimi bayram edilir. Qazaxda dərslərin həmin günə təyin olunması Müstəqil Azərbaycan Cümhuriyyətinin təhsilə göstərdiyi diqqət və qayğının bariz nümunəsi kimi təqdirəlayiqdir.

Seminariyanın məhz Qazağa köçürülməsində bir çox səbəblər var idi. Birinci və əsası Qazax "Zaqafqaziyanın milli intellekt mərkəzi" sayılan Tiflisə yaxın idi, coğrafi mövqeyinə görə Azərbaycanın dünyaya açılan Qərb Qapısı idi, dəmir yolu buradan keçirdi. İkincisi, Qori seminariyasının məzunlarının əksəriyyəti Qazaxdan olan müdavimlər idi. Onlar da Qazax seminariyasının təşkili və fəaliyyət göstərməsində xüsusi rol oynadılar. Üçüncüsü, Firudin bəy həyat yoldaşı Badisəba xanım Vəkilovanın qardaşları ilə möhkəm dostluq münasibətində idi. Badisəba xanımı Firudin bəy çox sevirdi. Bu sevginin bariz nümunəsi Qoridən Salahlıya gələn məktublardan da görünür. Belə məktublardan bir neçə sətri diqqətinizə çatdırmaq istərdim:"... Mənim canım Badisəba, fikrim sənin yanındadır, həsrətlə yolunu gözləyirəm. Sənsiz burada tək qala bilmirəm. Üzündən, gözündən, əlindən öpürəm.Salamat olmağını Allahdan istəyirəm.Səni çox istəyən Firudin bəy köçərli!"- Bəlkə bu sevgidəndir ki, Firudin bəy seminariyanın Şuşaya deyil, Qazaxa köçürülməsində israrlı olmuşdu.



Firudin bəy Qazaxda seminariyanın direktoru kimi deyil, az vaxtda böyük ictimai xadim kimi də şöhrətlənir. O, seminariya nəzdində yetimlər evinin açılmasına da nail olur. 1920-ci ilin aprel çevrilişi Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə nəticələnir. Ziyalılara, demokratik qüvvələrə qarşı terror əməliyyatı aparılır, Qori və Qazax seminariyalarında üst-üstə 25-il can qoyan, ömrünü şam kimi əridən Firudin bəy sorğusuz-sualsız,xain ermənilərin əli ilə Gəncə qazamatında qətlə yetirilir. Ərinin ölümündən sonra Badisəba xanım Qazaxda qala bilmir, həyat yoldaşının, fədakar insanın yarımçıq qalan arzularının ardınca gedir. Azərbaycanın bir çox şəhərlərində, ən axırıncı isə Şəkidə yetim qızlar məktəbini açır və ömrünün son gününə qədər ona rəhbərlik edir.

Sovetlər gələndən sonra Xalq maarif komissarlığının qərarına əsasən seminariya 1920-21-ci dərs ilindən yeni tipli pedaqoji məktəb kimi Azərbaycanda pedaqoji kadrların hazırlanmasında fəallıq göstərir.

Dövlət başçımız İlham Əliyevin sərəncamı ilə keçən ildən fəaliyyətdə olan Bakı Dövlət Universitetinin Qazax filialını tarixi seminariyanın varisi hesab etmək olarmı, məncə olar. Əvvəllər bir neçə təhsil müəssəsinin- Zərdabi adına Pedaqoji Universitetin, Azərbaycan Müəllimlər İnstitutunun , sonda isə Azərbaycan Pedaqoji Universitetinin filialı olan keçmiş filial bir neçə dəfə bağlanmaq təhlükəsi ilə üzləşmişdir. Filialın ağır və böhranlı günündə Qazaxın qeyrətli oğlu professor Vüsət Əfəndiyev çiyinlərini ağır və məsuliyyətli yükün altına qoydu. İlk gündən filialda ciddi islahatlar aparıldı. Təhsilin keyfiyyəti, nizam-intizam bərpa olundu. Yenidənqurma, aparılan təmir-tikinti işləri, tələbə və müəllimlər üçün yaradılan şərait, abadlıq bu gün göz oxşayır. Filial nümunə göstərilə biləcək əsil təhsil müəssəsinə çevrilmişdir. Rayon rəhbərliyinin doğma münasibətini, qayğı və diqqətini kollektiv daim hiss edir. Mən əminlik və qətiyyətlə deyə bilərəm ki, bu filialda respublikanın heç bir ali təhsil müəssisəsində olmayan şəffaflıq, təmizlik var. Rayon icra hakimiyyətinin başçısı, hər bir Qazaxlının ürəyində xüsusi yeri olan Cənab Rəcəb Babaşovun göstərişi ilə filiala müasir tipli bina tikintisi üçün 10 hektar torpaq sahəsi ayrılmışdır. Bəlkə də bu sahə Cümhuriyyət dövründə ayrılan torpaq sahəsi olub. Lakin Şərqdə ilk Demokratik Respublikanın ömrü qısa olduğu üçün tikinti işləri aparıla bilməmiş, bütün işlər, arzular yarı yolda qalmışdır.

Bu ilin sentyabr ayının 17-də tarixi seminariyanın 100 yaşı tamam olur. Bu yaşı həm Firudin bəyin, həm də əsasını qoyduğu məktəbin yaşı kimi qəbul edə bilərik. Həyatını xalqın maariflənməsinə həsr edən ürfan çırağı, sənin olmayan qəbrin, ruhun hər birimizin qəlbindədir. Xalq üçün şam olub yananlar ölməndən sonra ürəklərə köçür.

***Heyran İmran qızı Vəkilova, BDU-nun Qazax filialının baş müəllimi, AJB-nin üzvü***

# Ciddi və tələbkar müəllim, ürəyiyumşaq ana...



Yaşasaydı, bu il Zəmanə xanımın 90 yaşı qeyd ediləcəkdi Ömrünün böyük hissəsini Azərbaycan təhsilinin inkişafına həsr etmiş Ağstafa rayonunun tanınmış ziyalısı Zəmanə Mehralı qızı Əliyevanın bu il 90 yaşı tamam olur. O,1927-ci ildə Azərbaycanın qədim yaşayış məskənlərindən biri olan Dağkəsəmən kəndində anadan olub.Orta təhsilini 1934-1944- cü illərdə doğma kəndindəki orta məktəbdə alıb. Dağkəsəmən kənd məktəbi Respublikanın ən yaşlı məktəblərindəndi. Arxiv sənədlərinə görə bu məktəbin əsası 1872- ci ildə qoyulub. Qeyd etmək yerinə düşər ki, məktəbin təsisçilərindən bir elə anasının yaxın qohumu, tanınmış ruhani Molla Rəhim Süleyman oğlu olmuşdur. Molla Rəhimin oğlu İbrahim Rəhimov İlk azərbaycanlı həkim-psixiator,nəvəsi Sona xanım Vəlixan isə İlk azərbaycanlı professor - göz həkimi olublar. Orta məktəbdə oxuduğu vaxtlarda məktəbin direktoru Qara müəllim adında bir müəllim olub. Sonralar Qara müəllimi böyük hörmətlə xatırlayar,hətta müəllimliyi seçməyində onun böyük rolu olduğunu deyirmiş.Qara müəllim uzun müddət məktəb direktoru və Tovuz rayon maarif şöbəsinin müdiri işləmişdi. 1944-cü ildə Həsən bəy Zərdabi adına Kirovabad Pedaqoji İnstitutunun kimya-təbiət fakultəsinə daxil olmuş, 1948-ci ildə institutu bitirirmiş və Ağstafa rayonun Pirili kənd orta məktəbində müəllimlik fəaliyyətinə başlamış, 1949-1952-ci illlərdə rayonun Tatlı kənd orta məktəbində dərs hissə müdiri və direktoru işləmişdir.1952- ci ildən isə ömrünün son illərinədək əmək fəaliyyəti rayonun Yenigün kənd orta məktəbilə bağlı olub. İşlədiyi müddətdə dəfələrlə kənd və rayon Sovetinin deputatı, rayon partiya komitəsinin büro və plenum üzvü,rayon qadınlar şurasının üzvü,respublika Müəllimlər qurultaylarının nümayəndəsi, həmçinin, SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisində iştirak üçün göndərilən Azərbaycan nümayəndə heyyətinin üzvü və 1951-ci ildə Azərbaycan komsomolunun XVII qurultayının nümayəndəsi seçilib. 1958-ci ildə "Qabaqcıl maarif xadimi" döş nişanı,1970-ci ildə Lenin yubiley medalı,1974-cü ildə "Sosializm yarışının "qalibi döş nişanı və dəfələrlə Maarif Nazirliyinin Fəxri fərmanları ilə təltif olub. 50 il pedaqoji stajı olan fəal ictimaiyyətçi və təşkilatçı Zəmanə Əliyeva nəinki rayon, hətta respublika pedaqoji ictimaiyyətində tanınmış məktəb direktorlarından biri idi. Əslində isə onu tanıyanlara elə gəlirdi ki, o, elə "direktor" doğulub. Həm respublikamızda, həm də dünyanın müxtəlif ölkələrində yüzlərlə məzunları olan Yenigün kənd orta məktəbi el arasında "Zəmanə müəllimənin məktəbi" kimi tanınır. Övladları deyirlər ki, o, zəhmli, ciddi, tələbkar, dürüst, eyni zamanda xeyirxah ,ürəyi yumşaq, bir qadın, ANA idi. Ailədə həmişə ondan çəkinərdik. Amma çox şeyləri öyrəndik : əsl Azərbaycan Qadının keyfiyyətlərini, ailəyə sədaqətli olmağı şərəfli ləyaqətli həyat yaşamağı, milli-mənəvi əxlaqi dəyərlərimizi qorumağı vətənə, xalqa, elə məhəbbəti və hörməti, qohum-əqrabaya bağlı olmağı, xeyirdə-şərdə iştirak etməyi və bu kimi çox dəyərləri. Doğma kəndinə, el-obasına çox bağlı olan, çox dəyər verən bir insan - Zəmanə müəllimə haqqında ən çox deyilən fikir- "əsl kişi" kimi qadın, fəxr edilən qadın!. Zəmanə müəllimə - dəyərli İNSAN, məsuliyyətli və bacarıqlı rəhbər, gözəl qadın və əsl ANA Yaşasaydı bu il 90 yaşı qeyd ediləcəkdi.



**Tağı Sadiq**

## DE, HƏNCƏRİSƏN

***(Hacı Zaməddin Ziyadoğlunun "Həncərisən" şeirinə zarafatyana cavab)***

Qələmi qoyanda kağızın üstə
İlkin soruşuram de, həncərisən?
Tapmıram yeməyə badam, ya püstə
Sənsə ovuc-ovuc ye, həncərisən?

Xəngəlin vaxtıdır, doldur qazana,
Yedirtmə amandı yoldan azana,
Həncərini yazıb, təzdən pozana,
Bildir yolunu sən, de, həncərisən?

Dilin gözəlliyi bildirir yeri,
Addım at irəli, çəkilmə geri.
Hələ bu günədək bil səndən qeyri
Bircə kəs yazmayıb söz - həncərisən?

Düzürsən şişləri odlu manqala,
Yeyirsən kimləsə mən qala-qala,
Qalmırsan heç kimdən sən, dostum, dala,
Kefini soruram de, həncərisən?

Əlinə alırsan sədəfli sazı,
Çalırsan, gözəllər süzür naz-nazı.
Ceyranlar yan qaçır, olma narazı,
Belə gedişə döz, de, həncərisən?

Təsbehi verirəm, götür əlinə,
Göz dəyməsin coşub daşan dilinə,
Sadiqəm, bağlıyam Azər elinə,
Yazsam min kəlmə söz, de,həncərisən?

***15.02. 2018***

## Yoxsan yanımda

Deyirdin ölüncə bir olacayıq.
Təmiz məhəbbətə pil olacayıq,
Sevgi dünyasından nur alacayıq.
Söylə, indi niyə yoxsan yanımda?

Deyirdin- ömürlük səninləyəm mən,
Ölüm də ayırmaz bir-birimizdən.
Əhdinə, andına dönüksən nədən,
Söylə, indi niyə yoxsan yanımda?

Sevgi gülşənində tər çiçək idin,
Arzuydun, istək idin, saf dilək idin,
Sinəmdə döyünən bir ürək idin,
Söylə, indi niyə yoxsan yanımda?

Bilməzdim oynarsan qəlb oyununu,
Kiçiltdin gözümdə çinar boyunu.
Sevən ürəklərin vəfası bumu?-
Söylə, indi niyə yoxsan yanımda?

Aradan nə keçdi, soyudun niyə?
Ülvi sevgimizi verdin küləyə.
Sadiqin ümidi qalıb diləyə,
Şad ollam həmişə olsan yanımda.
Söylə, indi niyə yoxsan yanımda?



- Dünyada ilk gözəlik salonunu 1902-ci ildə əslən yəhudi olan avstraliyalı Yelena Rubinşteyn açmışdı. O, ilk olaraq "Valaze" adlı krem hazırlamışdı. Bu krem qadınları günəşin yandırıcı şüalarından qoruyurdu.
- Azərbaycan tarixinin ilk hərbçi təyyarəçisi Qayıbovlar nəslinin ən nakam taleli nümayəndəsi 1891-ci ildə doğulmuş Fərrux Ağa Qayıbov olub. Cəmi 22 yaşında "İlya Muromets-16" hərbi hava ekipajına qəbul edilib. I Dünya müharibəsində iştirak edib. Belarusiya çöllərində gedən müharibədə 1916-cı ildə həlak olub.
- Azərbaycanın ilk ali təhsilli topoqrafı (yer ölçəni) Rusiyada təhsil almış Səmədağa Ağamalıoğlu olub (1878-1887).
- Bir dahidən soruşurlar:
  - Neçə cür dost var?
  - Dörd, - deyə cavab verir. Dostlar var, yemək kimi hər gün sənə lazım olur. Dostlar var ki, dərman kimi - sənə pis olanda onları axtarırsan. Dostlar var ki, xəstəlik kimidir - onlar özləri səni tapır. Dostlar var ki, hava kimidirlər - görsənmirlər, amma həmişə sənə lazım olurlar.
- İnsanlar qələm kimidirlər- hər kəs həyatını özü çəkir. Kimsə sındırır, kimsə korşaldır, kimsə qəddəyib həyatını çəkməkdə davam edir.
- Aqillər deyib: Səhər yeməyini padşah kimi, günorta yeməyini şahzadə kimi, axşam yeməyini kasıb kimi ye.
- Vağzalı rəqsi XVI əsrdə yaranıb. Keçmiş adı "Atlandırma"dır.
- İtalyan atalar sözü: Oyun bitdikdən sonra şah da, piyda da, eyni qutuya qoyulur.
- Atalar sözləri şəhadət barmağında daim parlayan qiymətli üzüklərdir (Alfred Tennison).
- Bəzi insanlar sizə sadiq deyillər, sizə olan ehtiyaclarına sadiqdirlər. Ehtiyacları dəyişdikdə sədaqətləri də dəyişir.
- Mənim bildiyim bir şey var, o da bilmədiyimdir (Sokrat).
- İnsan edə bilmədiyinin dəlisi, edə bildiyinin nankorudur.
- "Pioner" fransızca "pionier" sözü olub "Kəşf olunmamış ölkəyə ilk dəfə gələn", "bu və ya digər fəaliyyət sahəsində yeni cığıraçan" mənasındadır.
- "Proletariat" latincadan tərcümədə (proletarius) "vətəndaşlığı olmayan" deməkdir.
- "Traktor" sözü ingilis mənşəli olsa da, latınca "dartmaq, çəkmək" mənasını verən "trahere" sözündədndir.
- İran sözünün mənası "arilər ölkəsi, ari irqinə mənsub tayfaların yaşadığı yer" deməkdir.
- Hipotenus Pifaqorun həyat yoldaşının adı olub.
- Üç adamdan qaç: dağdan enən, dindən dönən, sonradan görən.
- Bir kişi bir qadın üçün hər şeyi etməyə hazırdırsa, demək onu sevmişdir. Bir qadın bir kişi üçün hər şeyi etməyə hazırdırsa, demək onu dünyaya gətirmişdir (Lev Tolstoy).
- Küreyindən vurana hirslənmə, ona güvənib arxanı çevirən sən olmusan (Çarlz Bukovski)
- Dünyada ərəblər qədər gözəl nağıl uyduran, farslar qədər bu nağılı gözəl danışan və türklər qədər bu nağıla inanan ikinci bir millət tanımıram (M.F.Axundov).
- Yalan danışma ki, böyüklüyünü itirəsən (İmam Əli).
- Dilin sümüyü yoxdur, ancaq bir zərbə ilə öldürdüyü insan çoxdur (Hz.Əli).
- Nə vaxt ki, hər şeyi başa düşürsən və daha incimirsən- müdriksən.
- Ağıllı adamın axmaq qarşısında susması təəccüblü deyil, çünki nağara səsi tar səsinə, sarımsaq iyi ənbər qoxusuna həmişə üstün gələr (Sədi Şirazi)
- Gözəllik tanışlıq üçün gərək olur, həyat və yaşamaq üçün isə insanlıq lazımdır.
- Kim ki, çoxlu vəd verir, deməli o heç nəyi yerinə yetirməyəcək.
- Dünyanın ən ətirli məscidi Təbrizdədi. Məscid inşa edilərkən palçığına müşk qatılıb. 600 il keçməsinə baxmayaraq məscid hələ də ətirini saxlayır.
- 1901-ci ildə təqdim edilməyə başlayandan bu günə qədər Nobel mükafatı 49 dəfə qadınlara və 825 dəfə kişilərə verilib.
- Yaxşı və gözəl fikir nitqi çəkib aparanda pis olmayır, nitq o zaman pis sayılır ki, məzmunu zay olur (Diogen).
- Yeni ədəbiyyat yeni bədii formalarda yox, yeni insanlarla doğulur (Alman nəzəriyyəçisi İ.Bexer).
- Xalq əgər parçalana bilirsə, o xalq yox, kütlədir (Yaşar Qarayev).

***Təqdim etdi: S.Əhmədli.***

# Böyük ustad, əziz dost

***1973-cü il Qazaxdan "Qalibiyyət bayrağı" (indiki " Göyəzən") qəzeti redaksiyasından bir ismarıc gəldi.Məni həmin redaksiyaya çağırdılar.Mən onda Kəmərli kənd orta məktəbinin 10-cu sinifində oxuyurdum.Nə isə...Redaksiyaya getdim.Orada məni şairlər Əladdin İncəli, Qara Qafqazlı və redaktor Qasım Murquzov qarşıladı.Kəmərlidə balaca rəssam kimi məhşurlaşmağımın sədası məni redaksiyaya gətirmişdi.Yuxarıda adını çəkdiyim həmin insanlar mənimlə xeyli söhbət etdilər.Söhbət əsasən rəssamlıqdan gedirdi.Müxbiri çağırıb mənnən müsahibə götürdülər, əl işlərimin bir neçəsini redaksiyada saxladılar.O işlərdən bir neçəsini xatırlayıram: "Səməd Vuğun ovda" , "Nə gözəl yaraşır Muğana ceyran", "Nəsiminin portreti" və s. Həmin rəsmlər kağız üzərində sulu boya ilə çəkilmişdi.Şair Əladdin İncəli həmin rəsmləri uzun müddət, işdən gedenədək öz iş otağında divardan asılı şəkildə qoruyub saxladı.***

Sonralar mən Bakıdakı Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbinə daxil oldum. Hər dəfə Bakıdan yay tətilinə gələndə redaksiya ilə əlaqə saxlayır və Əladdin müəllimlə görüşüb söhbət edirdim.Bu söhbətlərdə həmişə Ə.İncəli məni rəssamlığa həvəsləndirirdi. Öz üzərimdə möhkəm çalışmağı məsləhət görürdü. Yaşımız fərqli olsa da Əladdin müəllimlə söhbətlərim və dostluğum tuturdu. Çünki, mən özüm də lap uşaqlıqdan poeziya vurğunu idim. 10-cu sinifdə oxuyarkən Səməd Vurğunun "Vaqif" dramında Vaqif rolunun ifaçısı mən idim. Bu da şeirə, sənətə bağlılığın bir təzahürü idi.

Sonralar da şair Əladdin İncəli hər dəfə Bakıya gələndə məni tapırdı, mənlə görüşürdü.Hətta mənə bir neçə şerlər də həsr etmişdi.Bircə bəndi xatırlatmaq kifayətdir:



***"Gözəllik ovçusu olduq hərəmiz
Mən şair sən rəssam birdi bərəmiz
Yazda tamaşadı İncə Dərəmiz
Vəsfini mən yazım, rəsmini sən çək".***

Şairin rəsmini çəkmək məqamı 2000-ci ilin yazına təsadüf edir. Ə.İncəlinin 70 illik yubileyi həmin il may ayının 20-də Qazax şəhər mədəniyyət evində təntənəli surətdə keçirildi. Məndə həmin yubileyə çəkdiyim portretlə getdim.Şairin yubileyi mənə düşərli oldu. Həmin yubileydə aşıq Ədalətin çaldığı "Yanıq Kərəmi" nin təsiri altında mən "Dədə Ədalətin Kərəm yanğısı" əsərini yaratdım və əsər mənə böyük şan-şöhrət gətirdi.Sonralar bu əsəri sənətşünaslar və sənətsevərlər mənim şah əsərim adlandırdılar.Kətan üzərində yağlı boya ilə çəkilmiş bu sənət əsərinə görə mən Əlăddin İncəliyə minnətdaram.

Yetmiş yaşından ta dünyasını dəyişənədək hər il may ayının 20-də ustadın ad gününü təbrik edirdim. 75 yaşı tamam olanda həmin gün mən emalatxanada idim.Həvəslə nə isə işləyirdim.Bir zəng gəldi.Bu Əladdin müəllimin səsi idi.Sən demə həmin gün Bakıya gəlibmiş. Soruşdu ki, hardasan? Dedim iş otağımda.Söylədi ki, səni yaradıcılıqdan ayıra bilərəm.Mən başa düşdüm.Bilirdim ad günüdür.Nə isə...Bu da bir tarix. Şair Ə.İncəlinin 75 illik yubleyini ikimiz qeyd etdik.Böyük şair və kiçicik rəssam.

Mənim arxivimdə bir maraqlı videoyazı da qorunub saxlanılır.1996-cı il mənim yaradıcılıq emalatxanamda ziyalıların, sənət adamlarının görüşü: Əladdin İncəli, Həmid Abbas, Akif Səməd, Şəmistan Nəzirli, Asif Rüstəmli, Akif Mahmudoğlu, Məmməd Dəmirçioğlu, Nəvai Metin, aşıq Nurəddin Mustafaoğlu və s.

Unudulmaz şairimiz Əladdin İncəli bu günlərdə dünyasını dəyişdi.Allah rəhmət eləsin.Yeri behişt olsun!

Bizə qalan təsəlli odur ki, ondan bizə qalaq-qalaq kitablar, şerlər, xatirələr, videolentlər və bir də nəslin davamçıları - övladlar, nəvələr, nəticələr qaldı.

Bir daha yerin behişt olsun böyük ustad, əziz dost!!!

***Qafar Sarıvəlli,
Azərbaycan Rəssamlar İttifaqının üzvü.***

DƏLİ KÜR

Təsisçi:
"Qazax Xeyriyyə" İctimai Birliyi
Ünvan: Cəfər Xəndan 19a
Tel: 561-74-06, 563-18-10
Qəzet 1994-cü ilin mayından çıxır

VÖEN 1400521171
H/H
Az48TURA38090017938600010194
"Turan" bank
Qəzet "Dəli Kür" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmişdir.

Qəzet Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Lisenziya № V261
İndeks: 66975
Tiraj: 1000
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə uyğun olmaya bilər

Baş redaktor
Osman ƏNVƏROĞLU